QARABAĞ AZƏRBAYCANDIR!



SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 022 (6222) 5 fevral 2021-ci il Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Müdafiə Nazirliyi: Partlayış nəticəsində hərbi qulluqçumuz həlak olub



Fevralın 4-də günorta saatlarında Ağdam rayonu ərazisində partlayış baş verib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib. Hadisə nəticəsində əsgər Zeynalov Qubad İslam oğlu...

Bax 4

# İlham Əliyev: “Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir”

*Prezident İlham Əliyev Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

Bax 2



## Şuşadakı İsa bulağına yeni avtomobil yolu çəkiləcək



İşğaldan azad edilən Şuşa şəhərindəki İsa bulağına yeni yol çəkiləcək. Bu barədə SİA-ya Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli deyib. O bildirib ki, həmin yol uzunluğu təxminən 101 kilometr olan Füzuli - Şuşa avtomobil yolunun tikinti layihəsin...

Bax 6

## Sarkisyan Rusiya səfiri ilə görüşdü: nələr müzakirə olunub?

Bax 7



Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan atəşkəs rejiminin qorunması və Dağlıq Qarabağdakı humanitar problemlərin həlli istiqamətində davamlı səylərə görə Rusiya tərəfinə təşəkkür edib. “İki sahil” erməni mediasına istinadla xəbər verir ki, Ermənistanın üçüncü...

## Son üç gündə Ermənistandan Rusiyaya 4000 şəxs miqrasiya edib



Rusiyanın Ermənistan vətəndaşlarına qapılarını yenidən açması kütləvi miqrasiyaya səbəb olmaqdadır. SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, təkcə son 3 gündə Ermənistandan Rusiyaya 3900-4000 nəfər insan miqrasiya edib. Bu haqda yerevan...

Bax 4

## Moskva-Bakı reysləri ilə Azərbaycana hansı vətəndaşlar gələ bilər?



“Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) xarici ölkələrdən Bakıya yerinə yetirdiyi xüsusi reyslərə Azərbaycan vətəndaşları ilə yanaşı, buraxılan şəxslər açıqlanıb. SİA AZAL-a istinadən xəbər verir ki, həmin şəxslər aşağıdakılardır...

Bax 9

**Avropa Birliyi: COVİD-19 sosial-iqtisadi mühitə ağır zərbələr endirir**



Bax 13

**Su problemi: əsl səbəbləri və çıxış yolları**



Bax 15

**“Yuventus”dan Ronaldoya yeni təklif**



Bax 16

# İlham Əliyev: "Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir"

*Prezident İlham Əliyev Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Vüqar Süleymanovu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib.**

Prezident İlham Əliyevin çıxışı

-Siz Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Azad edilmiş torpaqların minalardan təmizlənməsi işi birinci dərəcəli vəzifədir. Bu işlər elə aparılmalıdır ki, işlər başa çatandan sonra hər hansı bir bədbəxt hadisə baş verməsin.

Azad edilmiş torpaqlarda son günlərdə və müharibədən sonra əfsuslar olsun ki, bədbəxt hadisələr baş verir. Mən Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, onlardan xahiş edirəm ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər. Mən insanların bu addımlarını bir tərəfdən başa düşürəm, onlar uzun illər vətən həsrəti ilə yaşamışlar, hər bir keçmiş məcburi köçkün tezliklə öz doğma torpağına, doğma kəndinə qayıtmaq istəyir, ancaq xahiş edirəm ki, gözləsinlər. Bir qədər gözləsinlər ki, minalardan təmizləmə işləri başa çatsın. Çünki bu, böyük təhlükədir, həm piyadalara, həm avtomobillərə böyük təhlükədir. Müharibədən sonra bir neçə belə bədbəxt hadisə baş verib, insanlar həlak olub, yaralanıb. Eyni zamanda, postlarda dayanan əməkdaşlar da nəzarət işlərini daha ciddi təşkil etməlidirlər ki, azad edilmiş torpaqlara qanunsuz, icazəsiz gedişə son qoyulsun.

Bu bədbəxt hadisələr bir daha onu göstərir ki, mənfur düşmən işğaldan sonra nəinki bütün binalarımızı, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda, hər tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb və bizdə mina sahələrinin xəritələri yoxdur. Ona görə, bizim istehkamçıların üzərinə çox böyük vəzifə düşür. Onlar bu vəzifəni elə icra etməlidirlər ki, azad olunmuş torpaqları tamamilə minalardan təmizləyə bilsinlər.

Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın.

Agentliyin qarşısında böyük vəzifələr durur. İlk növbədə, işin düzgün təşkil edilməsi məsələsinə diqqət yetirməlisiniz. Təşkilatlanma işi düzgün həll edilməlidir. Yaradılan yeni agentlik dövlət agentliyidir. Əlbəttə ki, ilk növbədə, peşəkar kadrlar seçilib agentliyin işinə cəlb edilməlidir. Təbii ki, keçmiş ANAMA qurumunun kadrlarından istifadə edilməlidir, eyni zamanda, agentliyin say tərkibi də müəyyən olunmalıdır. Çünki azad edilmiş torpaqlarda işləri sürətlə, keyfiyyətlə qurmaq və aparmaq üçün əlbəttə ki, agentliyin daha da böyük işçi qüvvəsi olmalıdır.

Yeni texnikanın alınması, əlbəttə ki, növbədə duran əsas vəzifələrdən biridir. Son illərdə bu sahədə texnoloji inkişaf özünü qabarıq şəkildə büruzə verir. İndi elə maşınlar, mexanizmlər, texnika var ki, işi həm sürətləndirir, həm də keyfiyyətlə aparmağa imkan verir. Ona görə, baxın, dünyanın aparıcı istehsalçıları olan şirkətlərin ən müasir texnikası ölkəmizə gətirilməlidir. Çünki işin keyfiyyəti və sürəti bundan asılı olacaq. Bizim keçmiş köçkünlərimiz 30 il vətən həsrəti ilə yaşayıblar. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, biz qısa müddət ərzində bərpa işlərinə start verə bilək və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər.

Mən ardıcıllıqla bağlı öz fikirlərimi dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, birinci dərəcəli vəzifə minalardan təmizləmə işləridir. Sonra ziyanın qiymətləndirilməsi, ondan sonra artıq bərpa işləri aparılacaqdır.

Azad edilmiş torpaqlarda minalardan başqa, partlamamış sursatlar da kifayət qədər çoxdur, bu da təbiidir. Çünki müharibə dövründə gedən döyüşlər təbii ki, azad edilmiş torpaqlarda partlamamış sursatların çoxluğuna səbəb olmuşdur. Odur ki, əraziləri bu sursatlardan təmizləmək də böyük zəhmət tələb edən məsələdir. Siz bu sahədə təcrübəli beynəlxalq mütəxəssisləri cəlb edərək işçilər üçün həm ölkə daxilində təlim kursları keçirməlisiniz, həm də xaricdə qısamüddətli kurslar təşkil olunmalıdır ki, bizim mütəxəssislər, istehkamçılar özləri-özlərini qoruya bilsinlər, eyni zamanda, burada ən qabaqcıl təcrübə tətbiq edilsin.

Peyk görüntülərindən səmərəli istifadə etməliyik. Peyk görüntüləri bizə əlavə imkanlar yaradır, həm müharibə dövründə, həm də müharibədən sonra təbii ki, bərpa işlərində. Biz ermənilər tərəfindən qırılmış meşələrin həcmini məhz peyklərdən müəyyən edə bilmişik və indi yerlərdə bunu təsdiq edirik. Meşələrimizin 54 min hektarı Ermənistan rəhbərliyi tərəfindən qırılıb, talan edilib və satılıb. Peyk görüntüləri, eyni zamanda, minalarla daha çox çirklənmiş yerləri də təsbit edir. Ona görə bu imkanlardan da səmərəli istifadə etməliyik.

Mən müharibə başa çatandan sonra Müdafiə Nazirliyinə göstəriş vermişdim ki, əlavə istehkamçı taborlar yaradılsın və onlar yaradılıbdır. Azad edilmiş torpaqlarda minalardan təmizləmə işi ilə bağlı mənə müntəzəm olaraq məlumat verilir və bu günə qədər işin təqribən 80-90 faizini Müdafiə Nazirliyinin istehkamçıları görüblər. Amma sizin rəhbərlik edəcəyiniz agentlik bundan sonra işin əsas hissəsini öz üzərinə götürməlidir. Əlbəttə, Müdafiə Nazirliyinin istehkamçıları bundan sonra da çalışacaqlar. Çünki işin həcmi kifayət qədər böyükdür. Ancaq Minatəmizləmə Agentliyinin elə imkanı olmalıdır ki, bu agentlik ümumi işimizə böyük töhfə versin. Çünki əvvəlki agentliyin texniki təchizatı çox aşağı səviyyədə idi, say tərkibi aşağı səviyyədə idi. Əgər biz bu işi onların öhdəsinə buraxsaydıq, bilinmir neçə il lazım olacaqdı. Bizim vaxtımız yoxdur. Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq. Ancaq hər kəs bilməlidir ki, birinci dərəcəli məsələ minalardan təmizləmədir.

*Ardı Səh. 3*



> **Azad edilmiş torpaqlarda son günlərdə və müharibədən sonra əfsuslar olsun ki, bədbəxt hadisələr baş verir. Mən Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, onlardan xahiş edirəm ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər"**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev A.T.Həsənovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncamla Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Altay Tofik oğlu Həsənov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

***

Prezident İlham Əliyev R.T.Hacıyevin Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb Trend xəbər verir ki, Sərəncamla Rəhman Tofiq oğlu Hacıyev Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri təyin edilir.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə haqqında Fərman imzalayıb.

# İlham Əliyev: "Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir"

*Prezident İlham Əliyev Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*



Əvvəli Səh. 2

Dəyən ziyanın qiymətləndirilməsi, infrastruktur layihələrinin icrası, evlərin tikilməsi, iş yerlərinin yaradılması - əgər bu işlər görülməsə, insanlar gedib o torpaqlarda necə yaşaya bilərlər? Gərək ev-eşiyi, şəraiti, suyu, elektriki, yolu, məktəbi, xəstəxanası olsun. Bu, böyük, genişmiqyaslı bir işdir. Mənfur düşmən işğal edilmiş və azad olunmuş torpaqlarda hər şeyi dağıdıb. Hətta son günlərə qədər yaşadıqları evləri də çıxarkən məhv edib, yandırıb, ağacları qırıb, xüsusilə Kəlbəcər və Laçın rayonlarında. Ağacların bir hissəsini yük maşınlarına doldurub Ermənistana satmağa aparıb. Qalan ağacları, sadəcə olaraq, qırıb ki, bizə qalmasın. Özləri tikmədikləri, - azərbaycanlıların yaşadıqları evləri ki, onları zəbt etmişdilər, - yandırıblar, dam örtüklərini, pəncərə çərçivələrini, sanitar qovşaqlarını çıxarıb aparıblar. Bu biabırçı kadrlar xarici mediada da kifayət qədər işıqlandırılmışdır. Görün, onlar nələri özləri ilə aparırlar?! Sanitar qovşaqlarını. Mənfur xuntanın özünə ofis yaratdığı Şuşa şəhərinin keçmiş raykom binasında kondisionerləri, radiatorları bu qaçaqaçda çıxarıblar. Çünki biz bilirdik ki, onlar oradan necə qaçırdılar. Bəlkə də qaçışda rekord nəticələr göstərmişlər. Amma bu qaçaqaçda da bellərinə yəqin ki, radiator, kondisioner bağlayıb Ermənistana qaçırdılar. Yəni, bizim bütün infrastrukturumuz, binalar yerlə-yeksan edilib. Ona görə hər kəs başa düşməlidir ki, bu işin miqyası nə qədər böyükdür və Azərbaycan bu bərpa işlərinə təkbaşına start verib. Biz heç kimdən yardım gözləmədən buna start vermişik və bütün işlər plan üzrə gedir. Ona görə, siz Müdafiə Nazirliyi ilə sıx əməkdaşlıq etməlisiniz, onlarla görüləcək işlərin cədvəlini birgə tutmalısınız, hansı sahələr daha əvvəl təmizlənməlidir, yəni, burada da metodologiya var, dünya metodologiyası var, peyk təsvirləri var.

Bildiyiniz kimi, Ermənistan minalanmış sahələrin xəritələrini bizə verməyib, ona görə burada peyk təsvirləri önəmli rol oynaya bilər. Eyni zamanda, mən hesab edirəm ki, biz özəl şirkətləri bu işlərə cəlb etməliyik. Mən artıq göstəriş vermişəm, indi xarici şirkətlərlə danışıqlar gedir. Hesab edirəm ki,

> **"Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz"**

onları cəlb etmək işimizi yüngülləşdirmək üçün önəmli addım olacaqdır. Hesab edirəm ki, bununla paralel olaraq, yerli şirkətlər də yarana bilər. Çünki bizdə bu vaxta qədər belə təcrübə olmamışdır. Ancaq işin həcmini nəzərə alaraq, mən hesab edirəm ki, özəl şirkətlər yarana bilər, Azərbaycanın biznes dairələri burada öz sözünü deyə bilər və beləliklə, biz bu işləri daha qısa müddət ərzində görə bilərik. Əlbəttə ki, bu özəl şirkətlər müvafiq texnika ilə təmin edilməlidir. Eyni zamanda, Minatəmizləmə Agentliyi onlara sertifikatlar da verməlidir, onlar akkreditasiyadan keçməlidir. Həmçinin xarici şirkətlərlə birgə müəssisələr də yaradıla bilər. Ona görə, siz agentliyin rəhbəri kimi bu işlərə də fikir verin.

Biz Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartlar hazırlamalıyıq. Yəni, bu, Azərbaycan standartları olmalıdır, əlbəttə ki, dünya praktikasına da baxmaq lazımdır. Hesab edirəm ki, bizim azad edilmiş ərazilərdə olan bu minalanmanın həcmi bəlkə də dünya miqyasında ən böyük dərəcələrdən biridir. Təmizləmə işləri də, əlbəttə ki, ardıcıllıqla aparılmalıdır. Burada da prioritetlər düzgün müəyyən edilməlidir. Siz bu prioritetləri də Operativ Qərargahla mütləq razılaşdırın. Çünki bu prioritetlər bizim bərpa işlərimizlə də uzlaşmalıdır. İlk növbədə, misal üçün, infrastruktur obyektləri - indi yollar çəkilir, mütləq o sahədə minatəmizləmə işləri aparılmalıdır, hava limanı tikilir, orada da indi bu işlər aparılır, elektrik xətləri çəkilir, yol boyunca bu işlər görülməlidir.

Yaşayış məntəqələrinə gəldikdə, biz, ilk növbədə, şəhərləri bərpa etməliyik. Ona görə, bütün şəhərlərin əraziləri birinci növbədə minalardan təmizlənməlidir. Bununla paralel olaraq, yaxın gələcəkdə bəzi kəndlərdə bərpa işlərinə start veriləcək və mən artıq bunu bildirmişəm. Biz indi "ağıllı kənd" konsepsiyasını da hazırlayırıq. Bu konsepsiya demək olar ki, hazırdır, mənə məruzə edildi, mən bunu təsdiqlədim. "Ağıllı kənd" birinci pilot layihəsi icra ediləcəkdir. Məhz o yerlər də düzgün təsbit edilməlidir. Əkin sahələri və əkin sahələrinə gedən yollar təmizlənməlidir. Bu da prioritetlər sırasındadır. Çünki mənfur düşmən bizim torpağımızı da vəhşicəsinə istismar edib. Azad olunmuş torpaqlarda təkcə taxıl altında 90 min hektar sahədən mənfur düşmən qanunsuz istifadə edib və qanunsuz varlanıb. Vaxt itirməmək üçün mənim göstərişimlə bütün güclər artıq səfərbər edilib və müharibə başa çatandan sonra mən dərhal bu işlərə start verdim. Deyə bilərəm ki, payızlıq əkin də aparılmışdır. Baxın, müharibə noyabrın 10-da dayandı və biz dekabr ayından payız əkininə başlamışıq. Mənə gündəlik məlumat verilir, 7 min hektarda artıq payız əkini aparılıb. Yəni, bu, yenə də bizim gücümüzü göstərir. Onu göstərir ki, biz bir dəqiqə də, bir gün də gözləmək istəmirik. Biz bu torpaqlara qayıtmaq istəyirik və keçmiş köçkünlər, əlbəttə ki, bu arzularla 30 il yaşayıblar. Onların hisslərini başa düşmək olar. Amma, eyni zamanda, onların və onlarla birlikdə olanların təhlükəsizliyi birinci dərəcəli məsələdir. Bu yaxınlarda üç nəfər minaya düşüb, bir nəfər həlak olub. Yəni, o işin təşəbbüskarı var. Təşəbbüsü irəli sürən adam özü də xəsarət alıb, yanında olanlar da. Ona görə, bu, çox ciddi məsuliyyətdir. Ona görə, indi yazlıq əkin üçün sahələrin müəyyənləşdirilməsi prosesi də gedir, torpaqlar müəyyən edilib və o əkin sahələrinə gedən yollar da mütləq prioritetlər sırasında olmalıdır.

İnkişaf etmiş ölkələrdə istehsalçılar indi robotlardan geniş istifadə edirlər, biz də bundan istifadə etməliyik. Bir sözlə, ən müasir texnologiyalar, ən son model texnika Azərbaycana gətirilməlidir. Bizim güclü bir qurum yaratmalıyıq, ilk növbədə, onun başlıca vəzifəsi əraziləri minalardan təmizləmək olmalıdır. Bizim Dövlət Minatəmizləmə Agentliyimiz ölkə daxilində bütün işləri başa çatdırandan sonra bu təcrübədən istifadə edərək, xarici ölkələrdə də fəaliyyət göstərə, podratçı kimi işləyə bilər. Beynəlxalq təşkilatlar tərəfindən də bizim bu agentliyin xidmətindən istifadə oluna bilər. Bax, strategiyanı belə qurun. Yəni, bu, agentliyin gələcək fəaliyyəti üçün uzunmüddətli strategiya olmalıdır. Ancaq qısamüddətli və ortamüddətli strategiya torpaqların minalardan təmizlənməsidir ki, bərpa işləri başlansın və vətəndaşlar tezliklə öz doğma torpaqlarına qayıda bilsinlər.

Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov:

-Çox sağ olun, möhtərəm cənab Prezident. Sürətlə inkişaf edən Azərbaycanımız bu gün zəfər çalmış ölkədir. Bu, sözsüz ki, Sizin həm Prezident, həm də Ali Baş Komandan kimi gərgin əməyinizin parlaq nəticəsidir. Bu gün ölkəmiz əsası Ulu Öndərimiz tərəfindən qoyulan inkişaf strategiyasını uğurla davam etdirərək yeni hədəflərə doğru irəliləyir. Qarabağa böyük qayıdış bu hədəflərdən biridir. Bu hədəflərə nail olmaq üçün, Siz qeyd etdiyiniz kimi, mina təhlükələrindən qurtulmaq birinci dərəcəli vəzifələrə aiddir.

Hörmətli cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, agentlik bütün imkanlarını səfərbər edəcək və qarşımıza qoyulmuş vəzifələrə, hədəflərə nail olacaqdır.

Azad edilmiş ərazilərdə minatəmizləmə işləri tapşırığınıza əsasən lazımi səviyyədə, beynəlxalq standartlara uyğun və keyfiyyətlə yerinə yetiriləcəkdir. Mən qürur duyuram ki, belə bir məsuliyyətli işin təşkilində iştirak edəcəyəm və bu etimadınıza görə Sizə minnətdarlığımı bildirirəm. Çox sağ olun.

# Hər kəs öz məsuliyyətini başa düşməlidir

*Adil Əliyev: Qarşıda bizi daha ciddi işlər gözləyir, bu səbəbdən də hər kəs öz məsuliyyətini başa düşməlidir*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz 44 gün ərzində ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Əzəli və əbədi torpaqlarımız düşmən işğalından azad edildikdən sonra qarşıda duran əsas məqsədlərdən biri də bərpa-quruculuq işlərinin həyata keçirilməsi və vətəndaşlarımızın öz torpaqlarına geri qayıtmasıdır.**



Dövlətimizin başçısı həmişə çıxışlarında bildirir ki, işğaldan azad edilmiş ərazilər təkcə ölkəmizin yox, eyni zamanda, dünyanın cənnət guşələrindən birinə çevriləcək. Artıq bu sahədə işlərə start verilib və ilkin mərhələdə yolların, hava limanının tikintisi işləri sürətlə davam edir. Bunu "İki sahil"ə açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev deyib.

Ərazilərin minalardan təmizlənməsinin, Ermənistanın ölkəmizə uzun illər ərzində vurduğu maddi və mənəvi ziyanın hesablanmasının diqqət mərkəzində olduğunu qeyd edən Adil Əliyev bildirib: "Hazırda Ermənistanın ölkəmizə vurduğu zərərin hesablanması məqsədilə mütəxəssislərin iştirakı ilə komissiyalar fəaliyyət göstərir. Ermənistanın vurduğu ziyan sözlə ifadə edilə bilməyəcək qədər böyükdür. Davam edən hesablamalar nəticəsində alacağımız rəqəmlərin çox böyük olacağı şübhəsizdir. Çünki Ermənistan ərazilərimizi yalnız işğal etməyib, orada mümkün olan bütün özbaşınalıqları, vandalizmi həyata keçirib. Ərazidə salamat binaların qalmaması, bütün infrastrukturun dağıdılması, tarixi, mədəni abidələrin məhv edilməsi nəticəsində ölkəmizə külli miqdarda ziyan vurulub.

Hazırlanan hesabatlar Ermənistanın vurduğu zərərin qarşılığında ödənilməli olan təzminatın məbləğinin müəyyənləşdirilməsi üçün əsas təşkil edəcək. Minatəmizləmə əməliyyatları başa çatdıqdan, habelə vurulan ziyanın məbləği müəyyən edildikdən sonra ərazidə quruculuq işləri daha da geniş vüsət alacaq.

Hazırda isə mühüm məsələlərdən biri işğaldan azad olunmuş ərazilərdə yeni idarəetmə modelinin qurulması, habelə həmin torpaqlarda aparılan bütün işlərin sistemləşdirilməsi və növbəti mərhələdə oraya böyük qayıdışın təmin olunmasıdır. Məlum olduğu kimi, hazırda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında işğaldan azad edilmiş torpaqlarımızda aparılan işlərlə bağlı Qərargah yaradılıb.

Qərargahın əsas fəaliyyət istiqamətlərindən biri işğaldan azad edilmiş ərazilərlə bağlı irəli sürülmüş təşəbbüslərin qiymətləndirilməsi, eyni zamanda, bölgənin gözəl guşəyə çevrilməsi istiqamətində planlı işlərin aparılmasıdır.

İşğaldan azad edilmiş ərazilərimizdə yeni idarəetmə sistemi qurulur, dövlətimizinə başçısının xüsusi nümayəndələri ərazilərə təhkim olunur və orada baş verən bütün hadisələr onların nəzarəti altındadır.

Belə ki, ilkin olaraq Şuşa şəhərinə xüsusi nümayəndə təyin edildi. Bundan əvvəl isə Şuşa dövlətimizin başçısı tərəfindən ölkəmizin mədəniyyət paytaxtı elan olunub. Bununla yanaşı, Şuşa şəhərinin Türk və İslam dünyalarının paytaxtı elan edilməsi istiqamətində ciddi iş aparılır. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi ilə yanaşı, aparılan abadlıq-quruculuq işləri, habelə işğaldan azad edilmiş ərazilərimizin sakinlərinin oraya geri qaytarılması prioritet məsələlərdəndir.

Təəssüflə qeyd etməliyik ki, belə bir məqamda bəzi məmurların irəli sürdüyü təkliflər olduqca absurd səslənir. Bəzən məmurların təkliflərinin əsasında dövlət mənafeyindən daha çox, şəxsi mənafe dayanır, bu cür münasibət isə qəbuledilməzdir.

Eyni zamanda, bəzi məmurların onlara edilən müraciətlərə yanaşma tərzləri olduqca qəbuledilməzdir. Belə ki, vəzifəli şəxslərə edilən müraciətlər zamanı onlar hər hansı bir problemin həlli üçün yalnız onlara fərdi qaydada müraciət etdikdən sonra məsələnin həllinin mümkün olacağını bildirirlər. Əfsuslar olsun ki, bəzən hər hansı bir məsələnin həlli üçün müvafiq icra hakimiyyəti orqanının rəhbərliyi ilə əlaqə saxlamaq müşkül məsələyə çevrilir. Belə olduqda isə sadə vətəndaşların həmin məmurların qəbuluna düşməsi, problemlərinin həll edilməsi demək olar mümkün deyil.

Dövlətimizin başçısı öz çıxışlarında dəfələrlə deyib ki, hər bir məmur ona göstərilən etimadı doğrultmalıdır. Göstərilən etimadı doğrultmayanların, qanunsuz əməllər törədənlərin ilkin mərhələdə vəzifələrini, bəzi hallarda isə azadlıqlarını itirmələrinin dəfələrlə şahidi olmuşuq. Bu gün vəzifənin və ya səlahiyyətin həcmindən asılı olmayaraq, əsas amalımız Azərbaycan Prezidentinin formalaşdırdığı siyasi iradəyə uyğun olaraq dövlətə, dövlətçiliyə, vətəndaşlarımıza xidmətdir. Əgər əsas hədəf budursa, hansı səbəbdən bəzi məmurlar əlçatan olmaqdan imtina edir, görüşlərdən, telefon zənglərindən qaçır və sonda vətəndaşların problemləri daha da dərinləşir.

Bəzi hallarda vətəndaşların müraciətləri təmin olunmadığı üçün daha yuxarı qurumlara müraciətlər edilir, vətəndaşın məmurun qəbuluna düşməsi isə indiki məqamda mümkün deyil. Başadüşüləndir ki, indi pandemiyadır və hazırki məqamda qəbul mümkün deyil, amma ən azından müraciətlərə baxılaraq onların qanunvericiliyin tələblərinə uyğun həlli mümkündür. Lakin bəzi məmurlar sanki özlərini bütün cəmiyyətdən təcrid ediblər. Belə hallar heç xoşagələn deyil və cəmiyyətdə olan xoş əhval-ruhiyyənin, mehribançılığın, inamın əleyhinə yönələn yolverilməz hərəkətlərdir.

Ümid edirik ki, Prezident İlham Əliyevin Şuşanın məmurlar paytaxtı yox, mədəniyyət paytaxtı elan edildiyi barədə fikirləri hamı üçün dərs olacaq. Çünki bu gün hər kəs torpaqlarımızın işğaldan azad edilməsinin cəmiyyətdə yaratdığı xoş ovqatın daimi olması istiqamətində əlindən gələni etməlidir. Axı qarşıda bizi daha böyük işlər gözləyir. Bunların içərisində ən mühümü isə işğaldan azad olunmuş ərazilərimizin dirçəldilməsi və oraya böyük qayıdışın təmin edilməsidir.

## Son üç gündə Ermənistandan Rusiyaya 4000 şəxs miqrasiya edib

*Ermənilər bu kimi xəbərlərin yayılmasından təlaşlanırlar*



Rusiyanın Ermənistan vətəndaşlarına qapılarını yenidən açması kütləvi miqrasiyaya səbəb olmaqdadır. SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, təkcə son 3 gündə Ermənistandan Rusiyaya 3900-4000 nəfər insan miqrasiya edib. Bu haqda yerevan.today yazır. Bildirilir ki, bunun qarşılığında Rusiyadan Ermənistana 3400 nəfər adam səfər etsə də, onlardan yalnız 1263 nəfəri Ermənistan vətəndaşlarıdır və onların geri dönmə səbəbləri ölkədəki mal-mülklərini satıb, yenidən Rusiyaya dönmək məqsədini daşıyır.

Bu arada ermənilərin mediaport teleqram kanalı yazır ki, Rusiya Federasiyasına getmək istəyən vətəndaşlar səhər saatlarından Qeqarkunik vilayətinin pasport masası şöbələrinə toplaşıblar. Eyni vəziyyət digər vilayət strukturlarında da yaşanmaqdadır.

"Heç bir dəfə görmüsünüz ki, Azərbaycan teleqram kanalları özlərini bu qədər rüsvayçı aparsınlar?"

Diqqət çəkən və maraq doğuran məqamlardan biri də ermənilərin sosial şəbəkələrdə bu kimi məlumatlar ətrafında çoxsaylı müzakirələrin aparması, habelə onların da Ermənistanı tərk etmək niyyətində olmaları barədə yazılanlardır. Bu reallıqdan təlaşlanan erməni teleqram kanallarından biri hiddətlənərək yazır: "Xain teleqram kanalları növbələrin şəkil və videolarını çəkir və bildirirlər ki, bu insanlar ölkədən getmək istəyənlərdir. Hətta bu belədirsə, onda bunu nəyə görə dərc edirsiniz? Elə bir ölkə yoxdur ki, oradakı teleqram kanalları dövlətə qarşı işləsin!!! Əgər siz Paşinyana qarşısınızsa, bu zaman onun özü və siyasəti haqqında yazın. Hansı cəhənnəmə görə siz məlumatları dərhal rus dilinə tərcümə edib, sonra da işıqlandırırsınız? Heç bir dəfə görmüsünüz ki, Azərbaycan teleqram kanalları özlərini bu qədər rüsvayçı aparsınlar? Onlar heç vaxt daxili siyasətlərini ictimailəşdirmirlər, bu da onların uğurlarıdır... siz isə əlinizə kiçik imkan düşən kimi yarışa girib, kimin daha tez bənzər materialları tərcümə edib işıqlandırmağa çalışırsınız", erməni teleqram səhifələrinin birində yazılıb.

*Rövşən RƏSULOV*

## Pensiya və müavinətlərin maliyyələşdirilməsinin büdcədən asılılığı azalıb

"Əmək bazarında şəffaflaşma nəticəsində məcburi dövlət sosial sığorta ödənişləri üzrə daxilolmalar artıb və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) büdcə asılılığı azalıb". "İki sahil" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib. Nazir qeyd edib ki, əgər 2017-ci ildə büdcədən maliyyələşmənin xüsusi çəkisi 38,1 faiz idisə, 2020-ci ildə bu göstərici 25 faizdən azdır.



## Müdafiə Nazirliyi: Partlayış nəticəsində hərbi qulluqçumuz həlak olub



Fevralın 4-də günorta saatlarında Ağdam rayonu ərazisində partlayış baş verib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib. Hadisə nəticəsində əsgər Zeynalov Qubad İslam oğlu həlak olub.

Digər iki hərbi qulluqçumuz Babayev Nemət Novruz oğlu və Məlikməmmədov Balaqardaş Mübariz oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Hazırda yaralılar həkim nəzarətindədir, həyatları üçün təhlükə yoxdur. Hadisə ilə bağlı cinayət işi açılıb, araşdırma aparılır. Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçunun yaxınlarına dərin hüznlə başsağlığı verir.

## "Caucasus Review" nəşrində Ermənistanın Azərbaycan qarşısında hüquqi məsuliyyəti barədə məlumat dərc edilib



Almaniyada çıxan "Caucasus Review" nəşrində Azərbaycan hökuməti tərəfindən Strasburqdakı Avropa İnsan Haqları Məhkəməsinə Ermənistana qarşı iddia qaldırılması barədə məlumat dərc edilib. Məqalədə göstərilir ki, iddia ərizəsində Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyi illər ərzində sonuncuya ciddi maddi ziyan vurmaqda ittiham edilir.

AZƏRTAC xəbər verir ki, nəşrin yaydığı məlumata görə, fevralın 1-də Ermənistan Azərbaycana qarşı cavab iddiası qaldırıb, lakin həmin iddiada hər hansı əsaslı ittiham göstərilmir. Azərbaycanın iddiasından fərqli olaraq, Ermənistanın bütün ittihamları əsassızdır, çünki Azərbaycan Ermənistanın ərazisini bircə gün belə işğal etməyib.

Lakin şübhə etmirik ki, AİHM kimin təcavüzkar və işğalçı, kimin isə təcavüz qurbanı olması məsələsini araşdıracaq, xüsusən ona görə ki, bu məhkəmənin əlində "Çıraqov və başqaları Ermənistana qarşı" işi ilə bağlı presedent var. Həmin iş üzrə verdiktə əsasən, Ermənistan Azərbaycan ərazisini işğal etmiş dövlət hesab edilib. Azərbaycan Ermənistanı hərbi cinayətlər törədilməsində ittiham edir və işğal illəri ərzində Azərbaycana vurulmuş ziyana görə kompensasiya tələb edir.

# İtaliya və Azərbaycan mühüm strateji tərəfdaşdır

**Dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan dünyada yüksək imicə malik olan ölkədir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan beynəlxalq əlaqələr müasir dövrümüzdə daha da möhkəmlənir. Demokratik tərəqqi yolunu seçmiş Azərbaycan özünün qonşusu olan və olmayan dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı münasibətlərini inkişaf etdirir. Bu sırada İtaliya ölkəmiz üçün ən mühüm tərəfdaşlardan biridir.**

İkitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən, siyasi-iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlər əldə olunub. Ölkə başçılarının qarşılıqlı rəsmi səfərləri mövcud münasibətlərin inkişafını daha da yüksəltmişdir. Səfərlər çərçivəsində bir çox razılaşmalar və strateji tərəfdaşlıq haqqında mühüm sənədlər imzalanıb.



İlham Əliyev: “İtalyan şirkətləri bizim ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaqlar”

## “...BİZ İTALYAN XALQININ BİZİMLƏ HƏMRƏY OLDUĞUNUN ŞAHİDİ OLDUQ”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də İtaliyanın “Maire Tecnimont Group” şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən İtaliya və



Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirib: “Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik. Həmçinin keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir”.

Əlbəttə ki, Azərbaycanla İtaliya arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğunu şərtləndirən xeyli sayda nümunələr var. Cənab Prezidentin vurğuladığı kimi, keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyəti oldu. Qonaqlar ölkəmizə səfərləri çərçivəsində Azərbaycanın Gəncə və Ağdam şəhərlərinə səfər edib, onlar Ermənistan tərəfindən törədilən hərbi cinayətlərlə yaxından tanış olmuşdular.

Erməni vəhşiliyi, vandallığı bu gün işğaldan azad olunan bölgələrə səfər edən hər kəsi təəccübləndirdiyi kimi italyanları da təəsübləndirib. “Qafqazın Xirosiması” adlanan Ağdamada yeganə salamat bina şəhər məscididir. Bu müqəddəs məkanda da ermənilər ondan donuz tövləsi kimi istifadə ediblər. Bütün bunlara baxmayaraq Azərbaycanın bütün bölgələri abadlaşacaqdır.

## “AZƏRBAYCAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ HƏYATI BƏRPA ETMƏK ÜÇÜN ZƏRURİ OLAN BÜTÜN TƏDBİRLƏRİ GÖRƏCƏK”

Artıq Azərbaycanın qarşısında yeni yollar açılır, yeni, qaynar bir dövr başlayır. Bildiyimiz kimi, işğaldan azad olunan bölgələrdə artıq infrastruktur layihələr həyata keçirilir. Cənab Prezidentin qeyd etdiyi kimi, indi tariximizin yeni səhifəsidir: “Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək. Bu, asan olmayacaq, çünki hər şey məhv edilib və işğaldan azad olunmuş əraziləri ziyarət etdikdə biz hər şeyin dağıldığını müşahidə edə bilərik. Bütün binalar, zavodlar, tarixi abidələr, sosial infrastruktur yerlə-yeksan edilib. Beləliklə, biz hər şeyi sıfırdan etməli olacağıq. Buna görə də, əlbəttə, fəaliyyətimizin bu istiqaməti üzrə bizə yaxşı tərəfdaşlar lazım olacaq”. Dövlət başçısı onu da bildirib ki, italyan şirkətləri bizim ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaqlar: “Sizə deyə bilərəm ki, artıq bərpa işləri və tikinti işləri ilə bağlı bir neçə italyan şirkəti dəvət olunub. Əminəm ki, onların sayı daha da artacaq. Çünki mən artıq dəfələrlə çıxışlarımda demişəm və bir daha qeyd etmək istəyirəm ki, biz yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Yaxşı ingilis deyimi var: yaxşı dost dar gündə tanınar. Bu çətin anda siz dostlarınızın həqiqətən kimin olduğunu anlayırsınız. Bu, çox vacib və dəyərli bir məsələdir”.



## BAKIDA İTALİYA-AZƏRBAYCAN UNİVERSİTETİ TƏSİS EDİLƏCƏK

Qeyd edək ki, İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır və Azərbaycanda yüzə qədər İtaliya şirkəti fəaliyyət göstərir. Onlar müxtəlif sahələrdə həm özəl sektorla, həm dövlət qurumları ilə əməkdaşlıq edir, xidmət, ticarət, nəqliyyat, kənd təsərrüfatı, şərabçılıq və digər sahələrdə çox uğurlu iş birliyi yaradılıb. İki ölkənin gəncləri arasında da çox gözəl münasibətlər formalaşıb, universitetlər və digər mədəniyyət mərkəzlərinin əlaqələri getdikcə dərinləşir. Görüləcək işlər kifayət qədərdir. Bakıda İtaliya-Azərbaycan Universiteti təsis ediləcək. Dövlət başçısı diqqətə çatdırıb ki, biz artıq yer ayırmışıq: “Artıq universitetin yaradılması ilə bağlı məsələ üzərində işlər başlayıb. Bu məsələ, həmçinin hökumət səviyyəsində razılaşdırılmışdır. Ümid edirəm ki, gərgin çalışsaq bu il biz bu işə başlaya bilərik. Çünki bu, bizim dostluğumuzun yaxşı göstəricisi olacaq və eyni zamanda, biz bu müəssisələri, bu sənaye sahələrini idarə edə bilək deyə bizim iqtisadiyyatın gələcək üçün tələb etdiyi ixtisaslar üzrə gənc azərbaycanlıların hazırlanması və təlim keçməsi məsələsində də çox önəmlidir. Bu, həmçinin ölkələrimiz arasında sıx dostluq əlaqələrinin güclənməsinə də kömək edəcək”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Şəhid ailələrinə, qazilərə dövlət qayğısı davamlı olaraq artır



**Azərbaycanda şəhid ailələrinə, eləcə də Qarabağ qazilərinə diqqət, qayğı bütövlükdə sosial siyasətin prioritet istiqamətlərindən biridir. Artıq şəhid ailələrinin, eləcə də Qarabağ qazilərinin sosial təminatının daha da gücləndirilməsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən müvafiq Fərman və sərəncamlar imzalanıb, aidiyyəti qurumlara tapşırıqlar verilib və bu istiqamətdə fəaliyyətlər daha da genişləndirilir.**

Hazırda şəhid ailələrinin sosial təminatının gücləndirilməsi ilə bağlı 20 proqram dövlət tərəfindən dəstəklənir və maliyyələşdirilir. Eləcə də Qarabağ qazilərinin sosial təminatının gücləndirilməsi ilə bağlı 12 proqram həyata keçirilir. Nəticə etibarilə bu, ondan xəbər verir ki, həm şəhid ailələrinin, həm də Qarabağ qazilərinin sosial təminatının gücləndirilməsi ilə bağlı çoxlu sayda Dövlət proqramları mövcuddur. Eyni zamanda, həmin ailələrə verilən müavinətlərin artırılması da mütəmadi olaraq həyata keçirilir.

Məlum olduğu kimi, yanvarın 25-də Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında Sərəncam imzalayıb. Belə ki, Sərəncama əsasən, 2021-2025-ci illərdə həmin kateqoriyadan olan şəxslərin (ailələrin) mərhələli şəkildə mənzillə təminatı həyata keçiriləcək. Bu sənəd bir daha onu təsdiq edir ki, bu məsələ Azərbaycan üçün bütövlükdə ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir.

Dövlət dəstəyi ilə yanaşı, artıq yeni formalaşan "YAŞAT" Fondu da şəhid ailələrinə, eləcə də Qarabağ qazilərinə xüsusi dəstək nümayiş etdirməkdədir. Bütün rayon və şəhərlərimizdə "YAŞAT" Fondunun əməkdaşları İkinci Qarabağ müharibəsində şəhid olmuş vətəndaşlarımızın ailələri ilə görüşüblər. Təbii ki, "YAŞAT" Fondu həmin ailələrə lazımi dəstək göstərir və bu qayğı davamlı olacaqdır.

Eyni zamanda, həm dövlət tərəfindən, yəni dövlət büdcəsindən, həm də büdcədənkənar mənbələrdən də şəhid ailələrinin və Qarabağ qazilərinin, eləcə də onların ailə üzvlərinin sosial təminatının gücləndirilməsi ilə bağlı işlər davam etdirilir. Bu baxımdan Azərbaycan üçün 2021-ci il və növbəti illərdə də şəhid ailələrinin və Qarabağ qazilərinin ailə üzvlərinin sosial təminatının daha da gücləndirilməsi prioritet olaraq qalacaq. Bu istiqamətdə həm dövlət, həm Heydər Əliyev Fondu, həm də "YAŞAT" Fondu mühüm işlər həyata keçirirlər. Bu isə ondan xəbər verir ki, ölkəmizdə şəhid ailələrinin və Qarabağ qazilərinin sosial təminatının gücləndirilməsi ilə bağlı sistemli və kompleks tədbirlər həyata keçirilir.

***Cavid Əkbərov***

# Vətən müharibəsindən sonra doğulan şəhid övladlarının hesabına 5 000 manat köçürüləcək



**"YAŞAT" Fondu Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün yeni layihəyə başlayır. Bu barədə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib.**

Layihə çərçivəsində şəhidlərimizin yeni doğulacaq körpələrinin analarına zəruri xərclərin qarşılanması məqsədilə 1 000 AZN pul müavinəti təqdim olunacaq. Şəhidimizin yeni doğulacaq övladının adına isə bankda depozit hesabı açılacaq və həmin hesaba Fonda edilən ianələr hesabına toplanmış məbləğdən 5 000 manat köçürüləcək. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.



Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.

Layihə çərçivəsində 4 fevral tarixində Sumqayıt şəhərində şəhidimiz Eldar Abdullayevin övladı Ahunun, Gəncə şəhərində isə şəhidimiz Elvin Mustafayevin övladı Elvinanın zəruri xərcləri üçün Fond tərəfindən 1 000 AZN anaya təqdim olunub və dünyaya yeni göz açan körpələrin adına 5 000 AZN-lik hesab açılacaq. Allah şəhidlərimizə rəhmət etsin!

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

# Şuşadakı İsa bulağına yeni avtomobil yolu çəkiləcək



**İşğaldan azad edilən Şuşa şəhərindəki İsa bulağına yeni yol çəkiləcək. Bu barədə SİA-ya Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli deyib. O bildirib ki, həmin yol uzunluğu təxminən 101 kilometr olan Füzuli - Şuşa avtomobil yolunun tikinti layihəsin çərçivəsində həyata keçiriləcək:**

"Yeni trassa üzrə hazırlanan layihəyə Şuşanın məşhur İsa bulağınadək əlavə 2 km-lik II texniki dərəcəli yolun inşa edilməsi də daxil edilib. 2 hərəkət zolaqlı olacaq İsa bulağı yolu başlanğıcını yeni Füzuli-Şuşa avtomobil yolunun təqribən 82-ci km-dən götürəcək və Laçın-Şuşa-Xankəndi avtomobil yolunu uzunluğu 900 metr olan tunel vasitəsi ilə keçməklə inşa ediləcək".

# "Azərbaycanın etibarlı tərəfdaş və dost olması ən əsas rolu oynayır"

**"Əlbəttə ki, İtaliya Avropa Birliyinin ən güclü dövlətlərindən biri olmaqla, Azərbaycanla strateji əməkdaşlığa üstünlük verirsə, bu, bizim üçün əlavə çox böyük bir gücdür, əlavə imkandır. Çünki Avropa Birliyində söz sahibi olaraq İtaliyanın Azərbaycanla bu qədər yaxın olması təbiidir ki, nəticə etibarı ilə Avropa Birliyinin də Azərbaycanla yaxınlaşmasına az töhfə vermir." Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.**

Siyasi şərhçinin sözlərinə görə, o baxımdan İtaliya ilə bizim münasibətlərimizin dəyərləndirilməsi daha doğru, düzgün olar.

"Ümumiyyətlə, niyə İtaliya Azərbaycanla bu qədər yaxın münasibətlərdədir? Niyə İtaliya Cənubi Qafqazda məhz Azərbaycanı seçib? Niyə bir xristian ölkəsi olaraq, Avropa Birliyinin bir üzvü olaraq, bir Qərb ölkəsi olaraq İtaliya, məhz Azərbaycanla münasibətlərə bu qədər üstünlük verir? Bu, səbəbsiz deyil.



İtalyanlar xaraktercə, yəni millət olaraq etibarlı dostdurlar, etibarlı tərəfdaşdırlar və başqalarında da bu cür keyfiyyəti qiymətləndirməyi bacarırlar. Bilirsiniz ki, Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi tanınır, qəbul edilir. Yəni, Azərbaycanla tərəfdaşlıq edən istər böyük dövlətlər, kiçik dövlətlər olsun, istərsə də Transnasional korporasiyalar, şirkətlər, dünyada söz sahibi olan şirkətlər olsun, onlar məhz Azərbaycanla bu keyfiyyətinə görə iş birliyinə üstünlük verirlər. Azərbaycan dövləti sözünün ağasıdır. Eyni zamanda, Azərbaycan dövlətinin Prezidenti Cənab İlham Əliyev bütün dünyada, özəlliklə də dünya liderləri arasında sözünün ağası olan lider olaraq qəbul edilir. Yəni, Cənab İlham Əliyevin şəxsi keyfiyyətləri həm də Azərbaycan dövlətinin keyfiyyətləri və xarakteri deməkdir. Ona görə də, dünyada sözə dəyər verən, etibara və etimada dəyər verən bütün ölkələr, dövlətlər, eyni zamanda, şirkətlər Azərbaycanla iş birliyində maraqlıdırlar və Azərbaycan dövləti də, əlbəttə ki, bizimlə bərabər tərəfdaşlığa meyil edən hər kəsə öz qapılarını açır.

İtaliya bir dövlətdir, amma bilirsiniz ki, dövlətdən başqa Azərbaycan bir sıra Transnasional şirkətlərə də qapılarını açıb. Dünyanın ən aparıcı şirkətləri Azərbaycan Prezidenti ilə görüşmək üçün demək olar ki, bütün mümkün vasitələrdən istifadə edirlər, onunla danışıqlar aparır, təkliflər verir, Azərbaycanda iş qurmaq, yaxud da Azərbaycanı öz şəbəkələrinə qoşmaq üçün çalışırlar. Sözümün canı odur ki, İtaliya və itlyanların özləri sözünün ağası olan, etibarda və etimadda qüsur etməyən insanlarla, dövlətlərlə iş birliyinə üstünlük verirlər. Ona görə də Azərbaycanla bu qədər yaxın münasibətdədirlər, ona görə də Azərbaycana bu qədər maraq göstərirlər, ona görə də İtaliya mediası 44 günlük vətən müharibəsi dövründə Azərbaycanın haqq səsini dünyaya çatdırmaq üçün obyektiv yanaşma sərgilədi. Ona görə də İtaliyanın bir sıra siyasət adamları, siyasi xadimləri Azərbaycan Prezidenti başda olmaqla bizim siyasilərə, dövlətimizlə iş birliyinə bu qədər önəm verir. Yəni, demək istədiyim odur ki, İtaliya dövləti məhz bu xüsusiyyətlərinə görə, Azərbaycan Prezidentinin sözünün ağası olması, etibarlı, dost və tərəfdaş olması, eyni zamanda, onun başçılıq etdiyi dövlətin də eyni keyfiyyətləri daşıması baxımından bizə bu qədər maraq göstərib, yaxınlıq edirlər.

Əlbəttə ki, bu, başqa dövlətlər üçün də bir örnəkdir. İtaliya tək deyil, bizə maraq göstərən, bizimlə tərəfdaşlıq edən və etmək istəyən dövlətlərin sayı dünyada həddən artıq çoxdur. Təbiidir ki, qeyd etdiyimiz kimi, Azərbaycanın məhz etibarlı tərəfdaş və etibarlı dost olması burada ən əsas rolu oynayır", deyə Azər Həsrət bildirib.

***İnam Hacıyev***

# Qarabağda saya vurulan ermənilər hara yoxa çıxırlar?

Rauf Nəcəfli: "Əgər erməni Qarabağa avtobusla gəlibsə, yenə də gedib və geri dönübsə - o bir erməni kimi, yoxsa iki erməni kimi hesaba alınır?"



ANALİTİK

**2020-ci il noyabrın 10-da, daha dəqiq desək, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda sentyabırn 27-dən başlanan hərbi əməliyyatların dayandırılmasına dair üçtərəfli atəşkəs razılaşması imzalan zaman bütövlükdə Dağlıq Qarabağ ərazisində cəmi bir neçə yüz erməni sakin qalmışdı. Şəhər və kəndlər boşalmış, ermənilər kütləvi şəkildə oraları tərk edərək qaçmışdılar.**

Qeyd edək ki, bunu rəsmi erməni mənbələri də bildirir və Ermənistanın əmək və sosial məsələlər naziri Mesrop Arakelyan da İrəvanda parlament dinləmələri zamanı etdiyi çıxışında sözügedən məsələ barədə danışıb.

### Ermənilərlə rusların statistikası üst-üstə düşmür

Onun sözlərinə görə, artıq Dağlıq Qarabağdakı ermənilərin sayı 100 min nəfərdən çoxdur və onların əksəriyyəti geri dönməkdədirlər. Ancaq erməni nazirinin təqdim etdiyi "statistikanı" məhz erməni KİV-ləri və müxtəlif sosial şəbəkələrdə çıxış edən ictimai-siyasi adamları təkzib edirlər. Onlar Dağlıq Qarabağda yaşayan ermənilərin sayı barədə rəqəmlərin elə müharibədən əvvəl də doğru olmadığını göstərməklə yanaşı, rəsmi iddiaların həqiqəti əks etdirmədiyini bildirirlər.

SİA xəbər verir ki, sözügedən məsələ ilə bağlı epress.am saytı yazır ki, Arakelyanın təqdim etdiyi statistikası nədənsə Rusiya tərəfinin statistikası ilə üst-üstə düşmür. Belə ki, Rusiya tərəfinin iddiasına görə, noyabrın 10-dan fevralın 2-nə qədər Qarabağa 51 min 947 nəfər qayıdıb. Bu baxımdan sual yaranır ki, əgər noyabrın 10-da Qarabağda cəmi bir neçə yüz erməni qalmışdısa - hansı ki, Azərbaycan Ordusunun Şuşanı azad etməsinin ardınca Qarabağda yaşayan ermənilər Kəlbəcər yolu ilə kütləvi şəkildə Ermənistana axın edirdilər, onda indiki məqamda onların sayı 100 minə necə çata, ya da çatdırıla bilər? Və yaxud, Rusiya sülhməramlıları təxminən 60 minə yaxın ermənini geriyə qaytarıbsa, yerdə qalan 40 min erməni hansı yollarla Dağlıq Qarabağa geri dönüblər? Çünki bildiyimiz kimi, Ermənistandan Dağlıq Qarabağa ancaq Rusiya sülhməramlılarının nəzarət etdiyi Laçın dəhlizi ilə geçmək mümkündür.

### Ermənilərin sayı barədə rəqəmlərin şişirdilmiş olduğunu Ermənistanda da dolayısı ilə təsdiq etməli olurlar

Bundan əvvəl isə erməni tərəfi geri qayıdanlar barədə rəqəmlərdə Rusiya tərəfinin təqdim etdiyi statistika ilə həmin uyğunsuzluğu belə izah etmişdilər ki, guya Kəlbəcər Azərbaycanın nəzarətinə qaytarılana qədər Vardenis-Kəlbəcər-Ağdərə yolu ilə geri qayıdanların sayı 40 min nəfərə (?-R.R.) yaxın olub. Halbuki, göstərilən rəqəmə heç Ermənistanda da inanan olmamışdı və maraqlıdır ki, həmin zamandan indiyə qədər geri qayıdanlar barədə ziddiyyətli statistikanı şərh edən də yoxdur.

Arakelyan onu da iddia edib ki, Azərbaycanın nəzarətinə keçən ərazilərdə yaşayanların sayı 40 min nəfərə yaxın olub və onlardan 20 min nəfərə yaxını hazırda Ermənistanda yaşayır. 5 min nəfərə yaxın erməni isə Dağlıq Qarabağa, yəni Rusiya sülhməramlılarının məsuliyyət zonasına daxil olan Azərbaycan ərazilərinə qayıdıb. Bu zaman növbəti bir sual yaranır ki: onda yerdə qalan 15 min erməni haraya yoxa çıxıb? Bu ziddiyətli məqama da heç bir aydınlıq gətirilməyib. Bu baxımdan, artıq belə bir nəticəyə də gəlmək mümkündür ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaşayan ermənilərin sayı barədə rəqəmlərin şişirdilmiş olduğunu Ermənistanda da dolayısı ilə təsdiq etməli olurlar. Hansı ki, Ermənistanın hesablamalarına görə bu ermənilərin sayı işğalçı qüvvələrin şəxsi heyətini çıxmaqla heç də 60-70 min nəfərdən çox olmayıb.

Bu arada, postsovet məkanının bu gün də məşhur intellektual tele-yarışı kimi tanınan "Çto? Qde? Koqda?" ("Kim? Harada? Nə vaxt?") klubunun azərbaycanlı üzvü, www.gametv.az prodüsser mərkəzinin baş redaktoru Rauf Nəcəfli Qarabağ ermənilərinin İrəvandan geriyə qaytarılmaları ilə bağlı kifayət qədər düşündürücü və reallığı əks etdirən ironik sualla çıxış edib.

"Əgər erməni Qarabağa avtobusla gəlibsə, yenə də gedib və geri dönübsə - o bir erməni kimi, yoxsa iki erməni kimi hesaba alınır?", deyə Nəcəfli soruşub. Çox yəqin ki, erməni tərəfi bu suala cavab verməyəcək, çünki gerçəkliyi əkd etdirən bu suala cavab verməк düşmən tərəfinə ümumiyyətlə sərf etmir.

*Rövşən RƏSULOV*

# Sarkisyan Rusiya səfiri ilə görüşdü: nələr müzakirə olunub?



**Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan atəşkəs rejiminin qorunması və Dağlıq Qarabağdakı humanitar problemlərin həlli istiqamətində davamlı səylərə görə Rusiya tərəfinə təşəkkür edib. "İki sahil" erməni mediasına istinadla xəbər verir ki, Ermənistanın üçüncü prezidenti, Respublika Partiyasının lideri Serj Sarkisyan və Rusiyanın bu ölkədəki səfiri Sergey Kopırkin arasında görüş keçirilib. Bildirilir ki, Rusiya tərəfinin istəyi ilə baş tutan görüşdə Dağlıq Qarabağdakı müharibənin nəticələri ilə bağlı geniş müzakirə aparılıb.**

Bu haqda ilk məlumatı Respublika Partiyasının sədr müavini Armen Aşotyan "Facebook" səhifəsində yayıb. Qeyd edilib ki, görüş Rusiya tərəfinin təşəbbüsü ilə 3 fevral tarixində baş tutub. Məlumatda Sarkisyanın Rusiya tərəfinə atəşkəsin qorunması və Dağlıq Qarabağdakı humanitar problemlərin həlli istiqamətindəki ardıcıl səylərinə görə təşəkkür etdiyi qeyd olunur. Keçmiş prezident, münaqişənin əsas prinsiplər bazasında birdəfəlik həlli istiqamətində Rusiyanın ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi fəaliyyətini davam etdirilməsinin vacibliyini vurğulayıb. Eyni zamanda mövcud vəziyyətin müzakirə edilməsi kontekstində hərbi əsirlərin və ölən hərbçilərin cəsədlərinin axtarışı da müzakirə edilib. Maraqlı nüans odur ki, məlumatag görə, səfirin xahişi ilə Sarkisyan daxili siyasi məsələlərə, eyni zamanda bölgədə ortaya çıxan yeni geosiyasi reallıqlara da toxunub. Öz növbəsində, səfir müzakirə olunan məsələlər barəsində Rusiyanın mövqeyini təqdim edib.



# Acgöz məmur üçün məzar daşı

MƏTLƏB
Metlebsalahov@mail.ru

**Bir neçə dəfə rüşvətxor məmurlar barədə yazmışam. Yadıma gəlir ki, hər dəfə belə yazılar yazanda bir çoxları "qırmızı cizgini" keçməməyimi, "qaş düzəltdiyim yerdə vurub göz çıxarmamağımı" məsləhət görürdülər. Ən acı tablo elə bu deyilmi? Rüşvətxor, cinayət yolu ilə milyonlar mənimsəyən, mənsub olduğu komandaya və dövlətə arxadan balta vuran qudurmuş bəzi məmurların ac-yalavac insanların haqqını yeməsini, törətdikləri pislikləri görə-görə yenə də onlara qarşı "ehtiyatlı" olmaq kimi gülünc "məsləhətlər" almaq insanı dəhşətə gətirir. Onlar insanların halal haqqına daraşıblar. Lap gənə qana daraşan kimi. Amma artıq onlara sığal çəkmək kimi cinayətə bərabər "humanistliyə" yer yoxdur bu cəmiyyətdə. Dövlətin və xalqın pulunu yeyənlərə "bacarana can qurban" düşüncəsi ilə yanaşmaq, elə onların cinayətlərinə şərik olmaq kimi bir şeydir. Biz bu düşüncə ilə heç vaxt DÜZƏLƏN deyilik, heç vaxt!**

Kimdən çəkinməlisən? İnsanların haqqını, mülkünü yeyib-talayan, qanunları heçə sayan qudurmuşlardanmı? Nə vaxta qədər ki, biz cəmiyyət olaraq iyrənc, rüşvətxor və cinayətkar məmurlardan çəkinmək kimi rəzil düşüncəni beynimizdən silib yerə atmamışıq, bizim işimiz və bizdən sonra gələnlərin işi Allaha qalacaq. Bax əsl peşəkar mətbuatın yeri belə yerdə bərk görünür. Bəlaləri vaxtında ifşa edib cəmiyyətdə rüsvay etmək, törətdikləri cinayətlərə görə dərhal kreslosundan həbsxana çarpayısına sürümək, belə qudurmuşların kökünü qurutmaq üçün ən ideal yoldur. Amma bu yol çox vaxt qapalı qalır, keçid olmur bu yolda...

Sanki on illərdir cəmiyyətdə bələləri ilə "ehtiyatlı davranış" kodeksi yazılmamış "qanun" kimi beyinlərimizdə möhkəm yer edib. Vaxtında rüşvət və cinayət yolu tutan azğın məmurlara qanunla yerini göstərmədikcə, acı sonluq belə olur. Cəmiyyətin qanına susamış bələlərinə vaxtında dərs verməyəndə sonu faciə ilə bitir...

Budur, ölkənin birinci şəxsi, Dövlət Başçısı dilə gəlib bu tip məmurların iyrənc simalarını ictimaiyyət qarşısında açıqlamalı oldu. Gör bunlar hansı həddə çatdırıblar ki, Prezident bu tipli iyrənc məmurların əsl simasını cəmiyyətə açıqlayır. Üstəlik, ölkə ictimaiyyətini mədəniyyət paytaxtı elan edilmiş gözəl Şuşanı bu tipli qəsbkar məmurlardan qorumağa çağırır. Sitat: "Mən bəzən bu şeyləri demirəm vətəndaşlara ki, onları iyrəndirməyim, bağışlayın sözümə görə, ifadəmə görə. Amma mənim də artıq səbrim tükənir və deyirəm ki, vətəndaşlar da bilsinlər, bu məmurlar da bilsinlər. Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar.

Bir də ki, mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm! Ona görə hər kəs otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin."

Gerçəkdən hazırkı tablo, Dövlət Başçısının qeyd etdiyi kimi, kifayət qədər iyrəncdir. Bu insanların tamahı gör nə sərhədsiz həddə çatıb ki, yenicə işğaldan azad edilən, hələ minalarla və dəmək ki, hər an ölüm risqi ilə dolu olan bu torpaqlara sahiblənmək, onları da Azərbaycanın digər səfalı ərazilərini zəbt etdikləri kimi əhatəyə alıb özününküləşdirmək üçün ən rəzil yollara belə əl atırlar. Ay kişi, bu torpaqlar qanla alınanda sən və övladların cəbhənin hansı istiqamətində yer alırdın, harda idin?

Ölkədəki neçə hektarlarla əraziləri, ən gözəl, səfalı meşələri, dəniz kənarı torpaqları sözün əsl mənasında işğal edən bu qəsbkar məmur sürüsü, indi də Şuşaya göz dikib. Cənablar, hanı vicdan? Oğurladığınız dollarları demirəm, içinizdə olmalı olan vicdan harda qaldı? Hə, haqlısınız, əlbəttə, vicdan deyilən hiss orqanizminizdə və beyin xəttinizdə yer alsaydı, bu həddə çatmazdınız. Özünüzü bu şəkildə rəzil vəziyyətə təslim etməzdiniz. Təsəvvür edirsiniz, müharibənin ən ağır zamanlarında milyonluq ən bahalı maşınları ilə sosial şəbəkələrdə "poz verən" gülməşəkər "idmançı" balalarını oğurladıqları dollarlar kimi yastığın altında, öz qəsrlərində, xaricdəki villalarında gizlədənlər, indi Azərbaycan əsgərinin qanı hesabına azad edilən torpaqlarda öz istirahətləri üçün qəsrlər tikmək, yay aylarında kef məclisləri qurmaq üçün Şuşaya diş qıcayırlar.

Bunların mədələri ilə küt beyinləri arasındakı rabitə çoxdan itib. İtməsəydi, beyin sistemində bir "DUR" işarəsi qalardı. Amma bunlar doymurlar. Qəsb etdikcə torpaq, hektarlarla bağlar qəsb edirlər. Elələri var ki, hətta öz ev və bağ saraylarının sayını belə itiriblər. Ay bədbəxt, ay zavallı əzrayıl başının üstünü kəsəndə qəsb etdiyin villalar, yastığın altında və xarici banklarda saxladığın avrolar, dollarlar qəti köməyinə çatmayacaq. Yığdıqların elə burda, bu torpaqlarda qalacaq. Hər kəsin haqqını əlindən alıb qarşına yıqmaqla əzrayıldan limit almayacaqsan. Sən axirət evini düşün. Başqalarının haqqını, əmlakını əlindən alma, zorla qamarlama. Axı o da yaşamaq istəyir, o da insandır. Sən isə, artıq insan deyilsən, sadəcə vəhşisən, vəssalam.

Düşün ki, heç olmasa qəbir daşına baxanlar rəhmət oxumasalar da, nifrətlə goruna söyüb keçməsinlər. Onu düşün ki, səndən sonra övladların sənin bu dünyadakı əməllərinə görə min müsibət yaşamasınlar, hər addım başı nifrətli kəlmələr və tüpürcək udmasınlar. Amma mənim bu sadaladıqlarım sizin üçün artıq gecdir, çox gec....

# Vüqar Rəhimzadə: Böyük Qayıdış milli prioritetlərdə əsas hədəflərdəndir



**“Dövrün, zamanın tələblərinə uyğun təkmilləşmə yeni prioritetlərin müəyyənləşdirilməsini, onların icrası ilə bağlı Dövlət proqramlarının, inkişaf strategiyalarının təsdiqlənməsini bir zərurətə çevirir. Cənab İlham Əliyevin Prezident kimi fəaliyyətə başladığı gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoyması Azərbaycanın inkişaf modelinin təkmilləşdirilməsinə yol açdı.**

Belə ki, iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi üçün regionların malik olduğu təbii resurslardan səmərəli istifadəyə böyük ehtiyac yarandı ki, bu da öz növbəsində, regional inkişaf proqramlarının qəbulunu şərtləndirdi. Artıq 2004-cü ildən indiyədək 3 Dövlət Proqramının icrası başa çatıb, dördüncü sənədin icrası davam edir. Təbii ki, yeni-yeni hədəflər müəyyənləşdirildikcə aktual vəzifələr ortaya çıxır ki, bu da Dövlət proqramlarının qəbulu ilə tənzimlənir”. Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, bu sənədlərdən əlavə qəbul edilən və icrası istiqamətində mühüm addımlar atılan “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, eyni zamanda, 12 istiqamət üzrə Strateji yol xəritələri Azərbaycanın beynəlxalq maliyyə qurumlarının hesabatlarında liderliyini təmin etməklə yanaşı, eyni zamanda, ölkəmizin yeni iqtisadi və sosial çağırışların müzakirəsi üçün ideal məkan kimi qəbul olunmasında əhəmiyyətli rol oynayır: “Buna əmin olmaq üçün Azərbaycanın son 17 ildə əldə etdiyi sosial-iqtisadi göstəricilərə diqqət yetirmək kifayətdir. Ötən il dünyanı cənginə alan COVID-19 pandemiyası ilə mübarizə ili olmasına baxmayaraq, Azərbaycanda 2020-ci ilin göstəriciləri də o qədər narahatlıq doğuran deyildi. Çünki insanların sağlamlığının təminatı ilə bərabər, iqtisadi islahatların daha da dərinləşdirilməsi, sosial layihələrin icrasının davam etdirilməsi istiqamətində mühüm addımlar atılmış və müvafiq tədbirlər bu gün də davam etdirilir. Dövlətimizin başçısı İlham Əliyevin 19 mart 2020-ci il tarixli Sərəncamına uyğun olaraq 4 sektoru, 20 fəaliyyət sahəsini əhatə edən 10 sosial dəstək proqramının uğurlu icrası ortaya çıxan çətinliklərin aradan qaldırılmasında mühüm rol oynadı. Sosial dəstək proqramları bir daha təsdiqlədi ki, COVID-19-un yaratdığı problemlərə baxmayaraq, Azərbaycanda heç bir layihənin icrası təxirə salınmayıb, əksinə əhalinin sosial müdafiəsinin gücləndirilməsi prioritet istiqamət olub”.

Baş redaktor bildirib ki, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında əsas hədəflər Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək, yüksək gəlirli ölkəyə çevirmək, bugünədək 3 dəfədən çox artan ümumi daxili məhsulun daha iki dəfə artırılmasına nail olmaq idi. Azərbaycanın bu hədəflərə nail olmaq üçün atdığı addımların nəticəsidir ki, Dünya Bankının hesabatlarında ən islahatçı ölkələr sırasında yer alıb. Bu reytinqlər ölkəmiz üçün qarşıdakı dövrün prioritetlərinin müəyyənləşdirilməsində stimulverici amil rolunu oynayır. Bu illər ərzində idarəetmə sistemində təkmilləşmə də uğurlarımızı şərtləndirən amillər sırasındadır. Kadr islahatları, hakimiyyətin hər üç qolunda-icra, qanunvericilik və məhkəmə-hüquq sistemində təkmilləşmələrdə məqsəd dayanıqlı inkişafın təmin olunmasına və vətəndaş məmnunluğunun artırılmasına dəstək verməkdir. Kompleks tədbirlər fonunda qarşıya qoyulan hədəflərin icrası növbəti məqsədlərin təhlilini zərurətə çevirir.

V.Rəhimzadə günümüzün əsas çağırışlarından biri kimi vətəndaş məmnunluğunun artırılmasını önə çəkərək, dünyaya Azərbaycan brendi kimi səs salan “ASAN xidmət”, ABAD, DOST layihələrinin icrasına, onların coğrafiyasının genişləndirilməsinə diqqət yönəldib. Baş redaktor bu fikri xüsusi qeyd edib ki, Azərbaycanın keçdiyi yol inkişafda olan, yaxud da ki, çətinliklər içində yaşayan bəzi ölkələr üçün bir nümunədir: “Əgər dünya artıq inkişafın Azərbaycan modelindən bəhs edirsə və öyrənilməsinin vacibliyi bəyan edilirsə, bu, həyata keçirilən siyasətin uğurlu olmasından, gələcəyə hesablanmasından irəli gəlir. İkinci Qarabağ müharibəsində dünyaya səs salan hərbi və siyasi Zəfərimiz də uğurlarımızın təqdimatında əhəmiyyətli rol oynayır. Bu baxımdan ki, ötən illər ərzində hər bir sahədə gücləndik, beynəlxalq hüquqa əsaslanan xarici siyasətimizin uğurla həyata keçirilməsi nəticəsində haqqın, ədalətin kimin tərəfində olduğunu dünyaya çatdırdıq. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan ən yüksək tribunalardan bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və ola da bilməz. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan yeni reallıqlar yaratdı və bu gün həmin reallıqlara uyğun olaraq həm ölkə daxilində yeni hədəflər müəyyənləşdirilir, həm də bölgədə yeni əməkdaşlıq formatları yaradılır. Azərbaycan yeni əməkdaşlıq formatlarının müəllifi kimi çıxış edir. Möhtərəm Prezidentimiz İlham Əliyevin “Mən əldə edilmiş uğurlar haqqında həmişə danışmağa hazıram və fəxr edilməsi məsələlər kifayət qədər çoxdur. Ancaq mən həmişə, necə deyərlər, narazı oluram. Çünki mən istəyirəm ki, daha yaxşı olsun” fikirləri hər kəsdən, xüsusilə dövlət məmurlarından məsuliyyət hissini artırmağı, müəyyənləşdirilən hədəflərə çatmağa öz töhfələrini verməyi tələb edir”.

“Bu günlərdə dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı əsasında “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi də yeni dövrün reallıqlarına uyğun prioritetlərin və onların icrası mexanizminin müəyyənləşdirilməsinə xidmət edir” söyləyən V.Rəhimzadə qeyd edib ki, artıq ölkəmizin həyatında yeni dövr-quruculuq, bərpa dövrü başlayıb: “İşğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinin görülməsi sistemli şəkildə həyata keçirilir. Yeni sənəddə də bu məqamlar öz əksini tapır ki, “Qüdrətli dövlət, yüksək rifah” hər zaman həyata keçirilən siyasətin əsasını təşkil edir. Bu reallıq bir daha önə çəkilir ki, Azərbaycan mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanınır. İşğalçı Ermənistan üzərində tarixi Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkənin ümumi iqtisadiyyatına yönəldilməsi dayanıqlı inkişafımıza böyük təkan verəcək. Bu çərçivədə bölgədə təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi mənzərəsinin müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək. Azərbaycanın Cənubi Qafqaz regionu iqtisadiyyatının 85 faizinə sahib olması da bugünədək həyata keçirdiyi təkmil sosial-iqtisadi islahatlara əsaslanır”.

Baş redaktor vurğulayıb ki, yeni təsdiqlənən sənədə uyğun olaraq növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritet reallaşdırılmalıdır:

- dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış;
- təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

Bu prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının müəyyənləşdirdiyi “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərin icrasında da xüsusi əhəmiyyət kəsb edir: “Bu gün əsas çağırış işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyinin bərpa edilməsidir. Bu ərazilərdə bərpa işlərinin həyata keçirilməsinə dost ölkələrin şirkətləri də cəlb edilir. Dövlətimizin başçısı İlham Əliyev İtaliyanın “Maire Tecnimont Group” şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən bu məsələyə xüsusi diqqət yönəldərək bildirmişdir ki, azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün bizə yaxşı tərəfdaşlar lazım olacaq. Bərpa işlərinin o qədər də asan olmadığı belə əsaslandırılır ki, işğaldan azad olunmuş ərazilərdə erməni vandalları tərəfindən bütün binalar, tarixi abidələr, sosial infrastruktur yerlə-yeksan edilib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, hər şey sıfırdan başlanacaq”.

# DTX: Səlim Müslümov cinayət məsuliyyətinə cəlb olunub

**Müslümov Səlim Yanvar oğlunun Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb.**



Azərbaycan Respublikası
Dövlət Təhlükəsizliyi Xidmətinin
İctimai əlaqələr şöbəsinin

MƏLUMATI

Səlim Müslümov Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə **törətdiyi qanunazidd əməllərə görə** cinayət məsuliyyətinə cəlb olunmuşdur.

www.dtx.gov.az

AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin saytına istinadla xəbər verir ki, toplanılmış materiallar əsasında başlanılmış cinayət işi üzrə Səlim Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib, dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmasına, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitlərinin bir hissəsinin tələb olunaraq alınmasına əsaslı şübhələr müəyyən edilib.

Həmçinin Səlim Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olunub. Eyni zamanda, Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyənləşdirilib.

Səlim Müslümov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Gürcüstanda biznesmen qətlə yetirilib

Gürcüstanın Poti şəhərinin mərkəzində qətl hadisəsi baş verib. “Report”un yerli bürosu xəbər verir ki, naməlum şəxslər maşında olan 43 yaşlı kişiyə 10-a qədər atəş açıblar.

Qətlə yetirilən şəxsin iş adamı Quram Axalaya olduğu müəyyən edilib. Şahidlərin sözlərinə görə, o, avtomobilində oğlunu gözləyərkən yaxınlıqdan keçən maşından atəşə tutulub. Biznesmen təcili tibbi yardım maşını hadisə yerinə çatana qədər ölüb. Qətli törədən şəxs “isti izlər”lə saxlanılıb. Digər detallar hələ açıqlanmır.

# Moskva-Bakı reysləri ilə Azərbaycana hansı vətəndaşlar gələ bilər?



“Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) xarici ölkələrdən Bakıya yerinə yetirdiyi xüsusi reyslərə Azərbaycan vətəndaşları ilə yanaşı, buraxılan şəxslər açıqlanıb. SİA AZAL-a istinadən xəbər verir ki, həmin şəxslər aşağıdakılardır:

- Azərbaycan Respublikasında akkreditə olan xarici diplomatik nümayəndəlik və konsulluqların rəhbərləri, əməkdaşları və onların ailə üzvləri;
- Valideynlərdən biri, həyat yoldaşı və ya azyaşlı övladı Azərbaycan Respublikası vətəndaşı olan əcnəbilər;
- Azərbaycanda işləmək icazəsi olan əcnəbilər;
- Azərbaycanda müvəqqəti və ya daimi yaşamaq icazəsi olan əcnəbilər;
- Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələr.

Xatırladaq ki, AZAL fevralın 17-dən etibarən Bakı-Moskva-Bakı marşrutu üzrə xüsusi reyslərin yerinə yetirilməsinə başlayır. Məlumata görə, uçuşlar həftədə iki dəfə - həftənin çərşənbə və bazar günləri “Domodedovo” hava limanına yerinə yetiriləcək. Bakı-Moskva istiqamətində aviareysin sərnişinlərinin Rusiya ərazisinə giriş hüququ olmalıdır.

# Tarixi qayıdışın, əbədi məskunlaşmanın təntənəsi



**Prezident Ali Baş Komandan İlham Əliyevin əmri ilə ötən ilin sentyabrında Azərbaycan Ordusunun bütün cəbhə boyunca əks-hücum əməliyyatında qazandığı uğurlar Silahlı Qüvvələrimizin, dövlətimizin gücünü, qüdrətini bir daha nümayiş etdirdi.**

Şanlı ordumuz öz gücü ilə tarixi ədaləti bərpa etməyə, cəzasızlıqdan quduran işğalçı, Azərbaycanın sülh çağırışlarını saymazyana şəkildə rədd edən terrorçu Ermənistanı diz çökdürməyə qadir olduğunu bütün dünyaya sübut etdi. Bütün dünya Ali Baş Komandanın başçılığı ilə ordumuzun işğala söykənən status-kvonu dəyişdirdiyinə şahid oldu. Hamıya aydın oldu ki, Azərbaycan xalqının yenilməz iradəsi qarşısında heç bir qüvvə tab gətirə bilməz.

Qətiyyətlə demək olar ki, müzəffər ordumuzun şanlı qələbəsi nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Həyata keçirilən sosial-iqtisadi quruculuq uzunmüddətli dövrdə Azərbaycanın yeni inkişaf mərhələsinə keçməsinə, sürətlə inkişaf edən, yüksək rifaha malik lider dövlət olmasına möhkəm zəmin yaradıb. Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Prezident İlham Əliyevin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sərəncamı bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

5 əsas istiqaməti özündə ehtiva edən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanı, iqtisadi fəaliyyətə reinteqrasiya kimi başlıca məqsədlərə nail olunmasını nəzərdə tutur.

Qəhrəman ordumuzun şanlı qələbəsi ilə suverenliyini bərpa edən Azərbaycan son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük tarixi zəfərə nail olub. Ölkəmizin tarixi ərazi bütövlüyünün bərpası soydaşlarımızın öz doğma torpaqlarına qayıdaraq yaşaması üçün yeni mərhələ yaradıb. Bu məqsədlə həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır. Hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların əbədi məskunlaşması üçün böyük əhəmiyyət daşıyır. Bu baxımdan qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində yeni ərazilərdə layiqli yaşayış təmin ediləcək, müasir infrastruktur qurulacaq, regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin ediləcək.

Əslində Qarabağın dirçəlişi və işğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdış çoxdan başlayıb. Yağı tapdağından azad olunmuş ərazilərdə şəhər və kəndlərin bərpası və yenidən qurulması, elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal, digər zəruri infrastrukturların, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və digər məqsədlərlə 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait ayrılıb. Ölkə başçısı “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalayıb.

Bu gün işğaldan azad olunmuş ərazilərdə kommunikasiyaların bərpası istiqamətində çoxsaylı layihələr icra olunur. Yollar çəkilir, enerji ilə təminat məsələləri həll olunur, Füzuli rayonunda beynəlxalq aeroport tikilir, bir sözlə, kompleks tədbirlər həyata keçirilir. Bu proqrama uyğun olaraq işğaldan azad olunmuş bütün ərazilərimiz tamamilə yenidən qurulacaq, doğma yurdlarına qayıdacaq vətəndaşlarımızın layiqli yaşayışı, məişəti, məşğulluğu təmin ediləcək. Qarabağ bölgəsi Azərbaycanın iqtisadiyyatına böyük töhfələr verəcək.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev daim bəyan edir ki, Qarabağ bölgəsində cənnət yaradılacaq: “Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam”.

***Zahid Rza***

# Fransanın “Atlantico” portalında Zəngilan rayonu ilə bağlı məqalə dərc edilib

**Fransanın “Atlantico” portalında Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonu ilə bağlı məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi jurnalist Sebastyan Bussua 27 il erməni işğalı altında qalmış Zəngilanın 44 günlük döyüşlər zamanı azad edildiyini bildirir.**

O vurğulayır ki, beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi bu ərazilərin Azərbaycana məxsus olduğunu təsdiqləsə də, buna əməl edilmirdi. Səkkiz yüz min azərbaycanlı Qarabağdan didərgin salınıb. Onlar 30 il ərzində işğaldan əvvəlki həyatlarından uzaq düşməli olublar, evlərində isə ermənilər məskunlaşdırılıb.




Fransız jurnalist məqalədə Zəngilandan olan köçkünlər Rəsul və Aygünün fikirlərinə də yer verib. Rəsul birinci Qarabağ müharibəsində iştirak edib, onun oğlu isə İkinci Qarabağ müharibəsində döyüşüb.

Məqalədə Zəngilan kimi Ağdam, Füzuli şəhərlərinin də işğal dövründə eyni tale yaşadığı diqqətə çatdırılır. Bütün bu şəhərlərin yerlə-yeksan edildiyi, bəzi yerlərdə isə ermənilərin məskunlaşdırıldığı qeyd edilir. Ağdamda gördüyü vəziyyətdən dəhşətə gəldiyini qeyd edən jurnalist burada daşın-daş üstündə qalmadığını, şəhərin tamamilə dağıdıldığını vurğulayır.

Fransız jurnalist Zəngilanın uzaqdan gördüyü füsunkar təbiətini təsvir edir, bu gözəlliyin hələ ki, əlçatmaz olduğunu yazır. Çünki şəhərə daxil olmaq üçün əvvəlcə ərazi minalardan təmizlənməlidir. O, həmçinin ətrafdakı mənzərənin burada necə qızğın döyüşlər getdiyini əks etdirdiyini yazır.

S.Bussua Azərbaycan üçün çox vacib olan, Naxçıvanla əlaqə yaradacaq yolun tikintisindən də söz açır. O, Naxçıvan və onun tarixi haqqında məlumat verir, uzun illərdən sonra yenidən quru yolla Naxçıvana getməyin mümkün olacağını diqqətə çatdırır.

Məqalədə karbohidrogen ehtiyatlarla zəngin olan Azərbaycanın çox mühüm geostrateji məkanda yerləşdiyi bildirilir. İpək Yolunun keçmişdə qalmadığını qeyd edən jurnalist indi bu yolun yenidən Çin və Avropanı birləşdirən əsas mehvər olduğunu yazır, bütün dünya ölkələrinin bu yoldan faydalanacağını qeyd edir. Vurğulayır ki, Zəngilan məhz belə bir strateji yolun üzərində yerləşir.

Məqalədə azad olunmuş ərazilərin sakinlərinin doğma yurdlarına qayıdışlarını səbirsizliklə gözlədikləri diqqətə çatdırılır. Sakinlərin geri qayıdışının gələcək uğurların əsas hissəsi olduğu vurğulanır.

# Ermənilər Qarabağda yaşamaq istəmir

**44 günlük müharibə zamanı Dağlıq Qarabağdan Ermənistana qaçan ermənilərin xeyli hissəsi Rusiya sülhməramlılarının birbaşa təşkilatçılığı ilə avtobuslarla geri qaytarıldı. Təbii ki, bu geridönüm ermənilərin torpaq sevgisindən, vətənpərvərliyindən qaynaqlanmadı. Bu, proses birbaşa Rusiya hərbi kontingentini Cənubi Qafqazda koordinasiya edən siyasi dairələrin ssenarisinə uyğun həyata keçirildi.**



Yadınızdadırsa, mətbuatda Rusiyanın Qarabağda da Abxaziya, Cənubi Osetiya ssenarisini reallaşdırmaq niyyəti, guya ermənilərə Rusiya vətəndaşlığı veriləcəyi barədə əsassız şaiyələr yayılırdı. Amma bunları reallaşdırmaq uğursuz oldu, erməni təbliğat maşını ilk döngədəcə “qəza” törətdi, xəyallar puç oldu. Budur, indi Qarabağda yaşayan ermənilər Ermənistana, oradan da Rusiyaya, Ukraynaya, Qazaxıstana və Belarusa üz tutmağa hazırlaşırlar. Bu barədə xəbərlər həm Ermənistan mətbuatında, həm də digər qonşu ölkələrin mediasında tirajlanır.

Erməni mənbələri yazır ki, dekabrın 2-dən bəri Xankəndindən Ermənistana 34 mindən artıq erməni qayıdıb. Ermənilər Qarabağda yaşamaq istəmirlər. Onların məqsədi Ermənisanda da qalmaq deyil. Ermənistan ermənilərinin “karabaxneri” adlandırdıqları ermənilər Ermənistana, oradan da Rusiyaya, Ukraynaya, Qazaxıstana və Belarusa üz tuturlar. Bir sözlə, Ermənistandan Qarabağa yox, Qarabağdan Ermənistana erməni köçü var.

# YAP Səbail rayon təşkilatının nümayəndələri şəhid ailələrini ziyarət ediblər

**Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının nümayəndələri Vətən müharibəsində qəhrəmancasına Şəhid olmuş İbrahimli Cavidan Nizami oğlunun və Həsənov Vüsal Ariz oğlunun ailələrini ziyarət etdilər. SİA-nın verdiyi məlumata görə, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev, İdarə Heyətinin üzvü Hacan Hacıyev, "Telefonçular" (Baktelekom) və "Qurucular" (Bakı şəhəri İcra Hakimiyyəti) ərazi ilk partiya təşkilatlarının nümayəndələri, rayon partiya təşkilatının aparat rəhbəri və əməkdaşları Şəhid ailələrinin üzvləri ilə görüşdü.**





Görüş zamanı Vətən müharibəsi Şəhidlərinin əziz xatirəsi yad edildi, Vətən torpaqlarının azadlığı və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda edən qəhrəman Şəhidlərimizin analarına və ailə üzvlərinə yüksək hörmət və ehtiram ifadə olundu. Vurğulandı ki, Azərbaycan xalqı qəhrəman övladlarının əziz xatirəsini əbədi yaşadacaq. Şəhid ailələrinə ərzaq sovqatı və maddi yardım göstərildi.

Şəhid ailələrinin üzvləri dövlət səviyyəsində onlara göstərilən yüksək diqqət və qayğıdan danışdılar, Vətən uğrunda Şəhid olan qəhrəman övladları ilə fəxr etdiklərini bildirdilər.

Şəhid İbrahimli Cavidan Nizami oğlu 2000-ci il martın 24-də Bakı şəhərində anadan olub. Çox fərqli biri idi Cavidan. Həm kiçiklərin, həm də böyüklərin yanında çox böyük hörməti var idi. Cavidanı tanıyanlar onu yalnız xoş sözlərlə xatırlayır. Onun ürəyinin təmizliyi və xeyirxahlığı çox insanların yaddaşındadır. Onun əsl vətənpərvər Azərbaycan övladına yaraşan böyük ürəyi var idi. "Əsgər" adını həmişə yüksək tutan Cavidanı hərbi xidməti dövründə yalnız bir məsələ düşündürüb - Vətəninə layiqli övlad olmaq...O, bu amal uğrunda qanından və canından keçməyə hazır idi... və keçdi də... Cavidan 27 sentyabr tarixində könüllü cəbhəyə gedib. Vətən torpaqlarından mənfur düşməni qovmaqda böyük şücaət göstərən igidimiz 24 oktyabrda Cəbrayıl və Qubadlının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə Şəhadət zirvəsinə ucalıb. Allah rəhmət eləsin!

Şəhid Həsənov Vüsal Ariz oğlu 1997-ci il iyulun 3-də Bakı şəhərində anadan olub. Ürəyi Vətən sevgisi ilə döyünən, hərbi xidmətindən sonra yenidən hərbiyə qayıtmaq və Vətəninə xidmət etmək arzusu ilə alışıb-yanan Vüsal Vətən torpaqlarının azadlığı uğrunda Vətən müharibəsinin ilk günlərdən ön cəbhədə savaşıb, döyüş meydanında böyük şücaət və cəsarət nümunələri göstərib. Oktyabrın 7-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. Allah rəhmət eləsin!

Allah bütün Şəhidlərimizə rəhmət eləsin, ruhları şad olsun!

*Ceyhun Rasimoğlu*

# Göygöl "Gənclər paytaxtı" seçilib

## *Gənclik gördüyü işlə, qazandığı nailiyyətlərlə ölkəmizin daha da inkişaf etdirilməsinə töhfə verəcək*

**Bu gün hər kəsə yaxşı məlumdur ki, gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda da daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Ölkəmizdə sağlam gənclik yetişib. Sağlam gənclik isə sağlam nəsil deməkdir.**



Bu gün tam əminliklə söyləyə bilərik ki, müstəqil Azərbaycanda dövlətin diqqət və qayğısı sayəsində yetişən sağlam gənclik ölkəmizdə bütün sahələrdə fəallıqları ilə seçilirlər. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlar həyata keçirilib. Bu gün müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər ruhlu gənclərdir. Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, onlara geniş imkanlar açılır. Təbii ki, hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Prezident İlham Əliyevin sərəncamları ilə təsdiq olunan dövlət proqramları gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsində əhəmiyyətli rol oynayır.

Dövlət başçısı tərəfindən gənclərə hər zaman diqqət və qayğı ilə yanaşılır. 2 fevral Azərbaycan Gəncləri günündə 2021-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı görülən işlərin davamıdır. Sərəncama əsasən, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən bir neçə gəncə 2021-ci il Gənclər üçün Prezident mükafatları verilib. Gənclər Günündə belə bir Sərəncam dövlət-gənclər siyasətinin davamıdır. Gənclərə ayrılan daha bir diqqətdir ki, bu gün Göygöl şəhəri 2021-ci il üçün Azərbaycanın "Gənclər paytaxtı" elan edilib. Bu, 2 fevral -Azərbaycan Gənclər Günü münasibətilə keçirilən tədbirdə elan olunub. Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən istedadlı və yaradıcı gənclərin mükafatlandırılması mərasimində ölkənin 5 şəhəri - Göygöl, Xaçmaz, Mingəçevir, Sabirabad, Tovuz arasında püşkatma keçirilib. Püşkatmanın nəticəsinə əsasən Göygöl şəhəri 2021-ci il üçün Azərbaycanın "Gənclər paytaxtı" elan edilib. 2012-ci ildən başlayaraq hər il paytaxt Bakı şəhəri istisna olmaqla, Azərbaycanın şəhər və rayonlarından biri "Gənclər paytaxtı" elan olunur. Bu günədək Gəncə, Biləsuvar, Quba, İsmayıllı, Şəmkir, Balakən, Naxçıvan, Şamaxı, Masallı şəhər və rayonları Azərbaycanın "Gənclər paytaxtı" seçilib.

Məlumat üçün bildirək ki, "Gənclər Paytaxtı" 1 il müddətinə seçilir. Bu müddət ərzində, həmin şəhər (rayon) gənclərin ictimai, siyasi, sosial, iqtisadi və mədəni həyatda fəal iştirakını təmin edir, onların intellektual və yaradıcılıq potensialının artırılması yeni ideya və layihələrinin həyata keçirilməsinə dəstək verir. Bu gənclərə göstərilən diqqət, qayğı və etimadın bariz nümunəsidir. Göygöl şəhərində cəmiyyətimizin aparıcı qüvvəsinə çevrilən, ictimai həyatımızda öz fəallıqları ilə tanınan gənclərimiz çoxdur. Bu, bütövlükdə, Azərbaycan dövlətinin gənclərin ictimai-siyasi fəallıqlarına, müxtəlif sahələrdə qazandıqları əhəmiyyətli uğurlara verdiyi yüksək qiymətdir. Azərbaycan gəncləri bundan sonra da gördüyü işlərlə, qazandığı yeni-yeni nailiyyətlərlə ölkəmizin daha da inkişaf etdirilməsinə öz töhfələrini verəcəklər.

*Zümrüd BAYRAMOVA*

# Zərdabda şəhid İbrahim Cəbrayıllının ailəsi və məzarı ziyarət edilib

Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin hörmət və ehtiramla yad edilməsi məqsədilə Zərdab rayonunda silsilə tədbirlər keçirilir. Zərdab rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatı və Zərdab rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə bir qrup partiya fəalı Məlikumudlu kəndindən olan, Vətən uğrunda canını fəda edərək şəhidlik zirvəsinə yüksələn, öz adını xalqın tarixi yaddaşına həkk edən vətən, dövlət və xalq qarşısında öz borcunu sonadək ödəyib qəhrəmanlıq nümunəsi yaradan şəhid Cəbrayıllı İbrahim Raqub oğlunun doğum günü ilə əlaqədar ailəsini və məzarını ziyarət etmişlər. Ziyarət edənlər şəhidin məzarına gül-çiçək dəstələri düzərək ruhuna dualar oxumuşlar.





YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova şəhid İbrahim Cəbrayıllının valideynləri ilə söhbət zamanı bildirib ki, onların övladları igidlik, fədakarlıq, şücaət göstərərək 30 ildir işğal altında olan torpaqlarımızın azad edilməsi zamanı şəhid olmuşdur. Belə qəhrəman övladlar yetirdiklərinə görə onlara minnətdarlıq etmişdir. Bildirmişdir ki, hər bir şəhid ailəsi, hər bir qazi Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, Azərbaycan dövlətinin daim diqqətindədirlər. Onlara olan diqqət və qayğı əbədidir. Şəhid ailəsinə ərzaq bağlaması da təqdim edilmişdir. Şəhidin atası onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildirmişlər. Eyni zamanda, Birinci Qarabağ müharibəsi zamanı qəhrəmancasına həlak olmuş şəhidlərin məzarı da ziyarət edilib, əziz xatirəsi yad olunmuşdur.

Qeyd edək ki, şəhid Cəbrayıllı İbrahim Raqub oğlu ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

*Zümrüd BAYRAMOVA*

**Rusiyalı müxalifətçinin məhkəməsindən sonra Rusiyanın Avropa və ABŞ ilə münasibətləri yenidən alt-üst oldu. Aleksey Navalnının həbsinə qlobal reaksiya özünü çox gözlətmədi. Rusiya ilə Qərb arasında onsuz da problemli münasibətlərdə daha bir uzunmüddətli toqquşma meydana çıxdı.**




# Sınanılan, tanış Qərb küləyi

Qərb Navalnı işi ilə bağlı dialoqu davam etdirməyi qeyri-mümkün hesab etdi. Rusiyaya səfərə gələn Avropa diplomatiyasının rəhbəri Josep Borrell qarşısında demək olar ki, həll olunmayan bir vəzifə durur ki, o da sərtlik nümayiş etdirmək və eyni zamanda Avropa Birliyi ilə Rusiya arasında əməkdaşlığın mümkün olduğu sahələrdə qarşılıqlı fəaliyyət perspektivlərini qorumaqdan ibarətdir.

## Tənqidçilərin Rusiyanı tənqid xoru

Rus müxalifətçisi Aleksey Navalnının işinə baxılan Moskvanın Simonovski Məhkəməsinin iclasından sonra Rusiya paytaxtına akkreditə olunmuş bir sıra Avropa ölkələrindən olan diplomatların fikirləri açıqlandı. Bəyanatlar axınında, yüksək vəzifəli şəxslərin açıqlamaları üçün olduqca xarakterik olmayan emosional intensivliyi ilə Almaniyanın baş naziri Angela Merkel, Fransa Prezidenti Emmanuel Macron və İngiltərə baş naziri Boris Jonsonun qiymətləndirmələri diqqət çəkdi.

"Aleksey Navalnıya verilən hökm, qanunun aliliyi standartlarından çox uzaqdır. Navalnı dərhal sərbəst buraxılmalıdır. Dinc nümayişçilərə qarşı şiddət dayanmalıdır", deyə baş nazir Merkel xəbərdarlıq etdi. "Navalnıya verilən hökm qəbuledilməzdir. Siyasi fikir ayrılığı heç vaxt cinayət sayılmaz. Dərhal sərbəst buraxılmasını istəyirik", deyə Emmanuel Macron ardınca tələblə çıxış etdi. Boris Jonson isə, öz növbəsində, böyük siyasətə qədəm qoymuş keçmiş yazıçı və jurnalistin ittihamçı kimi qələmə verilməsini qınadı və Kremlin onu siyasi rəqib olaraq qəbul etmədiyini vurğuladı.

"Navalnının zəhərlənmədən sonra Rusiyaya qayıtmaq qərarı həqiqətən cəsarətli və fədakar bir hərəkət idi. Əksinə, məhkəmənin son qərarı açıq-aşkar qorxaqlıq idi və ən əsası isə, ədalət standartlarına cavab vermir. Aleksey Navalnı dərhal sərbəst buraxılmalıdır", deyə Boris Jonson özünün Twitter səhifəsində yazıb.

Bunların ardınca da aparıcı Avropa dövlətlərinin liderləri ilə birlikdə Avropa Şurasının sədri Şarl Mişel, Avropa Komissiyasının sədri Ursula fon der Lyayen və Avropa Birliyinin Xarici və Təhlükəsizlik Siyasəti üzrə Yüksək Nümayəndəsi Josep Borrell oxşar qiymətləndirmələr etdilər.

Cənab Borrell 4-6 fevral tarixlərində Moskvaya əvvəlcədən planlaşdırılan səfərinə hazırlaşdığı anda qalmaqalla bir daha gündəmə gəldi. Tutuldu və bu, artıq Rusiya-AB münasibətlərdə bir çox cəhətdən həqiqət anına çevriləcək.

"Aleksey Navalnı üçün verilən hökm, Rusiyanın qanunun aliliyi və əsas azadlıqlar sahəsində beynəlxalq öhdəliklərinə ziddir. Bu, eləcə də Avropa İnsan Hüquqları Məhkəməsinin bu işi əsassız hesab etdiyi hökmünə də ziddir. Dərhal sərbəst buraxılması çağırışı edirəm", deyə Josep Borrell səsini Moskvadakı Avropa tənqidçilərinin Rusiyanı tənqid edən xoruna əlavə edib.

## Aleksey Navalnının məhkəməsi dünyanın diqqət mərkəzində

Avropa diplomatiyasının rəhbəri Aleksey Navalnının hökmü çıxmazdan əvvəl də "belə bir fürsət olarsa" Rusiya müxalifəti ilə görüşmək istəyini səfəri ərəfəsində bildirmişdi. Bununla birlikdə, Avropa Birliyi ilə Rusiya arasındakı münasibətlərin mürəkkəbliyini qəbul edərkən, Moskvada müzakirə tələb edən kifayət qədər başqa mövzunun olduğuna da diqqət çəkib.

Həqiqətən də müzakirə olunacaq mövzular yetərincədir. Məsələn, Ukrayna ətrafındakı vəziyyət və onun müzakirəsi öz aktuallığını hələ də qoruyur. Eləcə də, ABŞ rəhbərliyinin dəyişməsindən sonra İranla nüvə anlaşmasının gələcəyi hələ də sual altındadır ki, bunu ruslar özləri də yaxşı bilirlər. Sadalanan məsələlər prioritet məsələlər hesab olunsa da, bununla yekunlaşmır. Belə ki, bütün dünyanı cənginə alan koronavirus pandemiyası özü çox böyük müzakirə mövzusu, həlli vacib məsələdir. Eləcə də iqlim dəyişikliyi problemi aktuallığını saxlayır ki, bunu Kreml də qəbul edir.

Avropa diplomatiyasının rəhbəri ən azı "əməkdaşlığın davam etdiyi və genişləndirilməli olduğu" sahələrdə seçmə dialoq üçün bir fürsət pəncərəsi saxlamağa çalışmaq üçün Moskvaya getdiyini açıq şəkildə bildirmişdi.

Bir sözlə, Rusiya hal-hazırda dünyanın diqqət mərkəzindədir. Üstəlik, Aleksey Navalnı ilə bağlı məhkəmə, onun işi daha böyük diqqətə səbəb olub, hətta dünyanın Rusiyaya cəmlənən diqqətini bir az da artırıb.

## Rusiya ilə əlaqədar nə planlaşdırılır?

Aparıcı Avropa siyasətçilərinin və Avropa qurumlarının rəhbərliyinin açıqlamalarından, bu açıqlamaların qətiyyətliliyindən, emosionallığından bəlli olur ki, Rusiyaya qarşı onsuz da mövcud sanksiyalara əlavə olaraq yeni addımlar atılmasına da hazırlaşılır. Hətta bu barədə açıq şəkildə xəbərdarlıqlar da edilir.

Yalnız, Moskva və Brüssel münasibətlərinin fonunda, "yeni Avropa" siyasətçiləri və diplomatları ancaq məhdudlaşdırıcı tədbirlərin görülməsinin vacibliyindən danışırlar. "Avropa Birliyi yenidən sanksiyalar mövzusuna qayıtmalıdır", deyə Çex Xarici İşlər Naziri Tomas Petrşicek öz Twitter səhifəsində yazıb. Heç şübhəsiz ki, Çex XİN rəsmisi öz sosial şəbəkə hesabında, "sanksiyalar mövzusuna qayıdılmalıdır", deməklə, ehyam vurur.

Aleksey Navalnı ilə bağlı münasibətin Vaşinqtonda yeni administrasiyanın işə başlamasından yalnız iki həftə sonra açıqlandığını nəzərə alsaq, əsas suallardan biri də Amerikanın gələcək davranışları necə olacaq, sualıdır. ABŞ-ın Rusiyaya qarşı münasibəti bəllidir. Ancaq prezident Trampın hakimiyyəti dövründən fərqli olaraq, ABŞ və onun Avropadakı müttəfiqlərinin mövqeləri arasında müəyyən bir uçurum qaldığından, hadisələrin hələ hansı istiqamətdə cərəyan edəcəyini söyləmək çətindir. Məsələn, hazırkı vəziyyət bir çox mövzularda kəskin fikir ayrılıqlarının yarandığı qənaətinə gəlməyə imkan verir.

ABŞ-ın yeni Dövlət katibi Entoni Blinkenin dediyi kimi, "ABŞ, Rusiyanı vətəndaşlarının hüquqlarına əməl etməməsinə görə məsuliyyətə cəlb etmək üçün öz hərəkətlərini müttəfiqləri və tərəfdaşları ilə sıx əlaqələndirəcəkdir." ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays, qəbul edilən Rusiya təhdidlərini qiymətləndirmək üçün işlərin "çox sürətli bir templə" irəlilədiyini qeyd edib. Navalnı işi hazırda Vaşinqton tərəfindən Rusiyaya qarşı "haker" hücumlarını intensivləşdirib. Bu işə, "seçki müdaxiləsi", eləcə də Əfqanıstandakı Amerika əsgərlərinin rəhbərləri üçün iddia edilən mükafatlar da daxil olmaqla ittihamların ümumi paketində baxılır.

"Rusiyaya zərərli, qanunsuz fəaliyyətlərinin bütün spektrini nəzərə alan hərtərəfli bir baxış var. Son illərdə Rusiyadan gördüklərimizə xeyir-dua verməyəcəyik. Vəziyyət hərtərəfli qiymətləndirdikdən sonra "sanksiyalar da daxil olmaqla, mütləq siyasi variantlar seçiləcək. Hər hansı bir sanksiya tətbiq olunana qədər danışmayacağıq", deyə Ned Prays açıq şəkildə bəyan edib.

Həm demokratlar, həm də respublikaçılar olan senatorlar da prezident Trampın məhv etməyi bacarmadığı Rusiya-Amerika münasibətlərinin təməlinin qalıqlarını belə qazılar desək, yanılmarıq. Hələ Barak Obamanın 2012-ci il prezident seçkilərindəki rəqibi Mitt Romney, yaxın gələcəkdə Navalnı ilə əlaqədar vəziyyətlə "məsul" olanlara qarşı sanksiyaların tətbiqinə dair bir qanun layihəsi təqdim etmək istədiyini açıqlamışdı.

"Güclü liderlər hakimiyyəti qorumaq üçün rəqiblərini həbs etməməlidirlər. Bu həftə bu hərəkətlərdən məsul olanlara sanksiya tətbiq edilməsi üçün bir qanun layihəsi təqdim edəcəyik", deyə cənab Romney söz vermişdi.

## Rusiyada Qərbə qarşı "immunitet" yaranıb

Bu arada xatırladaq ki, rəsmi Moskva da Qərbin yanaşmasına öz kəskin münasibətini bildirib. Nəzərə çatdıraq ki, Josep Borrellin Moskvaya səfəri ərəfəsində Rusiya Xarici İşlər Naziri Sergey Lavrov Navalnı məsələsi ilə bağlı Qərbin reaksiyasına münasibətini gizlətməyib. Rusiya XİN rəsmisi "Qərbdə qanunsuz hərəkətlərin necə yatırıldığı" barədə eyham da vurub. Vurğulayıb ki, Qərb öz daxilində olan narazılıqlar, etirazlar zamanı onlara məxsus güc strukturlarının kobud və qanunsuz davranışlarını gizlədərək, etirazçıların şüşələri sındırmaq, tikililəri dağıtmaq, maşınları yandırmaq kimi vəhşiliklərini, vandallıqlarını ön plana çəkir, özlərinə məxsus olan qanunsuzluqları, kobud davranışları pərdə arxasına salır. Lavrov qeyd edib ki, onun sadaladığı faktlar sosial şəbəkələrdə kifayət qədərdir və videogörüntülərdə də öz əksini tapır.

"Bu gün həmin video materialı Brüsselə Avropa Birliyinin Xarici Siyasət üzrə Yüksək Nümayəndəsi Josep Borrellə göndərdim", deyə Sergey Lavrov bəyan edib.

Rusiya XİN rəsmisi Avropalı həmkarını "əsassız açıqlamalara deyil, hər iki tərəfin konkret faktlarına əsaslanaraq" söhbət aparmaq üçün Moskvaya səfərindən əvvəl video materiallar ilə tanış olmağa çağırıb. Bütün bunlar təsdiq edir ki, Rusiya rəsmiləri belə artıq Qərbin bu ölkəyə sanksiyalara hazırlaşdığından xəbərdardırlar. Hətta, çox güman ki, Rusiya bu sanksiyalara hazırlıqlıdır da. Göründüyü kimi, Lavrovun bəyan etdiklərindən sonra Josep Borrell də demək olar ki, çətin bir vəzifə qarşısında qalır. Brüssel ondan sərtlik nümayiş etdirməsini və Rusiyaya həqiqi bir ultimatum verəcəyini gözləyir. Ancaq belə bir mövqe, səfərin uğursuz olması deməkdir ki, bunu da cənab Borrell özünə sığışdıracaq, yoxsa yox, bunu da zaman göstərər. Siyasi Araşdırmalar Mərkəzinin direktoru Andrey Fedorov "Kommersant" nəşrinə bu mövzuda açıqlamasında bildirib və etiraf edib ki, qarşıda vacib diplomatik döyüşlər durur.

Əlbəttə ki, demokratiyanın, söz azadlığının boğulması qəbuledilən deyil. Ədalətsizliyə, qanunsuzluğa hamı qarşı çıxmalıdır. Amma, gəlin görək, həqiqətən də Lavrovun dediyi kimi, Qərb özü demokratiya, söz azadlığı, bərabərlik kimi bu ali prinsiplərə əməl edirmi? Qərb ölkələrində nümayişçilərə, əliyalın etirazçılara qarşı rezin güllələrdən, atlardan, itlərdən istifadə edilməsi, bir çoxlarının xəsarət alması faktı, kütləvi həbslər məgər gizlindirmi? Xeyr. Biz bu qanunsuzluqların Avropa ölkələrində də, ABŞ-ın özündə də şahidi olmuşuq. Elə olan halda, Qərbin sanksiyadan danışması, bu barədə bəyan etməsi hansı məntiqə sığışır? Bu, yalnız, "öz gözündə tiri görməyib, başqasının gözündə tük axtarmaq" məntiqinə sığışa bilər ki, bu da artıq sınanılan, tanış Qərb küləyidir.

***İnam Hacıyev***

# Qürurumuz və vüqarımız şəhidlər

*Füzuli uğurunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Abbas Qasımov*

**Ən uca zirvədə olan şəhidlər xalqımızın qan yaddaşıdır. Vətən torpağının hər qarışını canlarından əziz tutaraq bu torpağı qanları ilə suvardılar. Odlar yurdunun, bu məmləkətin əbədi vətəndaşına çevrildilər. Mücadilə edərək erməni işğalı altında olan torpaqlarımızı qan bahasına azad etdilər.**





Minlərlə Vətən müharibəsində can fəda edib şəhidlik zirvəsinə yüksələn vətən övladları sırasında Qasımov Abbas Rza oğlunun da adi var. Vətən sanki Abbas kimi oğulları bu ana yurdun torpağının bütövlüyü üçün qəhrəman, vətənpərvər böyütmüşdür. Yüksək vətənpərvərlikləri, cəsurluqları onları şəhidlik zirvəsinə yüksəltdi.

Abbas elə lap kiçik yaşlarından yurd itkisinin acısını yaşamışdır. 17 mart 1986-cı ildə Qərbi Azərbaycanda anadan olan Abbasın həyat yoluna salınan naxışlar keşməkeşli olur. Həyatın ağ-qara zolaqları onu müşayiət edir. 2 yasında ikən ailəsi ilə birlikdə torpaqlardan ermənilərin azərbaycanlılara verdiyi zülm nəticəsində öz doğma torpaqlarını tərk etmək məcburiyyətində qaldılar. Bakı səhərinə köçüb burada yaşamağa başladılar. Amma, balaca Abbasın qara günləri bununla bitmədi. O, 6 yaşında ikən atasını itir və atasız qalan balaca Abbas çətin günlərə sinə gərərək yaşıdlarından geri qalmır. Çalışır, mücadilə edir, həyatin qoynuna mərdi-mərdanə atılır. İllər birbirinə calanır. 2003-cü ildə orta məktəbi bitirib MTN-in Akademiyasına daxil olur. Beləliklə, hərbi həyati başlayır. Seçimində qətiyyətli idi. 2007-ci ildə akademiyanı bitirən Abbas sərhədlərin mühafizəsi üçün bölüyə göndərilir. Dörd il Azərbaycanın bir neçə rayonlarda xidmət edir. Xidməti dövründə rəhbərliyi tərəfindən dəfələrlə medal və fəxri fərmanlarla mükafatlandırılan Abbas pilot vəzifəsinə təyinat alaraq Bakıya qayıdır. Abbas bu vəzifəsini de layiqincə yerinə yetirir. Xidməti haqqında heç bir söz danışmağı sevməyən Abbas son gedişində də hansı rayona belə getdiyini ailəsinə deməmdi. Abbas son günlərini yaşadığını hiss edirmiş kimi bu günlərdə də daima övladlarını görmək, onlarla vaxt keçirtmək istəyirdi. Hətta axsam evə gələcəyini bildiyi halda, gündüz işdə boş vaxt tapan kimi zəng edib, övladları ilə görüntülü danışır, sanki onları görməkdən, onlarla danışmaqdan doymurdu. İşdən evə gələndə çalışırdı ki, həmişə övladlarını sevindirsin, onların sevinci öz ürəyini də fərəhlə doldururdu. Axı özü atasız böyümüş, bu cür sevinc hisslərindən doymamışdı.

Abbas 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayanda döyüş bölgəsinə yollanmış və Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Taleyin oyununa bax. Vaxtı ilə atasız böyüyən Abbasin övladlarına da bu tale yazılıbmış sən demə - atasız böyümək. Bundan sonra Abbasın evində 2 oğul övladı atasız böyüyəcəklər. Amma şəhid övladı olaraq böyüyəcəklər. Bizə əmanət olan 2 oğul vətəni qorumaq, atasının adını layiqli şəkildə qorumaq üçün əsl vətənpərvər kimi böyüyəcəklər. Şəhid qanı ilə alınmış torpaqlarımızın müdafiəsində duracaqlar. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz, deyirlər. Odur ki, şəhidlər bizim qürurumuz, vüqarımız, fəxrimizdirlər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qazi Rəşad Əliyev: Vətən yolunda ayağımı itirdiyimə görə qətiyyən peşman deyiləm

**Mən sentyabrın 27-də Azərbaycan Milli Ordusu əks-hücum əməliyyatlarına başlayan ilk gündən döyüşlərdə iştirak etmişəm. Bir sıra uğurlu döyüş əməliyyatlarının iştirakçısı olmuşam. Lakin oktyabrın 10-da Suqovuşanda düşmən mövqelərinə doğru irəliləyərkən minaya düşdüm.**



Ətrafda çoxlu minalar basdırılmışdı, iki minanı zərərsizləşdirsəm də, üçüncüsünü görmədim. Partlayan mina məni havaya qaldırdı və oradaca ayağımı itirdim. Aldığım zədədən sonra mina partlayışı nəticəsində ayağını itirən döyüş yoldaşımın harayına yetirmək istəyəndə də sol ayağımı sındırdım...

AZƏRTAC xəbər verir ki, bu sözləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində Vətən müharibəsində yaralanmış qazi Rəşad Əliyev deyib.

O, üç gündür gəzdirdiyi protez sayəsində indi özünü yaxşı hiss etdiyini və yeriyə bildiyi üçün çox sevindiyini söyləyib: "Protezdən sonra özümü çox rahat hiss edirəm, sərbəst hərəkət edə bilirəm. Ona görə sevincimin həddi-hüdudu yoxdur. Düzdü, adamın öz ayağının yerini vermir, amma Vətən yolunda ayağımı itirdiyimə görə qətiyyən peşman deyiləm, torpaqlarımızın düşməndən təmizlənməsində pay sahibi olduğuma görə özümü xoşbəxt hiss edirəm".

# Tahir Rzayev: "Azərbaycan modeli" daha tez-tez səslənəcək



"Azərbaycan prezidenti cənab İlham Əliyevin Respublika televiziyasına müsahibəsi daxili və xarici aləmdə baş verən hadisələrə aydınlıq gətirməklə, günün reallıqlarını əks etdirir və həm də gələcək vəzifələri dəyərləndirir. Çıxışda "Azərbaycan modeli" ifadəsinin qürurla səsləndirilməsi və geniş şərh edilməsi bilavasitə Azərbaycanın inkişafı səciyyələndirir. Həm də xalqla Prezidentin birliyini özündə ehtiva edir. Çünki istənilən sahədə diqqəti cəlb edə bilməyən, çoxsaylı sağlam münasibət doğurmayan və bəyənilməyən bir tədbir, fəaliyyət modelə çevrilə bilməz. Ancaq Azərbaycanda həyata keçirilən çox mühüm tədbirlər yaxşı haldır ki, bu gün "Azərbaycan modeli" kimi dəyərləndirilir və dünyaya nümunə kimi bəxş edilir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Tahir Rzayev deyib. Deputatın sözlərinə görə, biz Birinci Avropa Oyunlarından sonra bunun şahidi olduq və Azərbaycanda keçirilən beynəlxalq idman tədbiri demək olar ki, bütün dünyanı heyran etdi: "Bundan sonra bir çox xarici ölkələr oyunların keçirilməsi sahəsində Azərbaycanın təcrübəsini öyrənməyə, təşkilati işlərə maraq göstərəməyə başladılar. Prezidentimizin xatırladığı kimi bu gün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) "Azərbaycan modeli" haqqında danışır və bu sahədə dövlətimiz tərəfindən həyata keçirilən tədbirləri çox yüksək qiymətləndirilərək dünyaya nümunə kimi göstərir. Dövlət Rəhbərimiz qeyd edir ki, Dünyanın aparıcı rəy sorğusu şirkəti də Azərbaycan vətəndaşları arasında təhlil, rəy sorğusu aparıb. Vətəndaşlardan 86 faizi dövlətin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir və bu göstəriciyə görə Azərbaycan dünyada 4-cü yerdədir". T.Rzayev vurğulayıb ki, bu qürurverici haldır: "Ciddi düşünülərək görülmüş işlər koronavirusa qarşı ilk gündən həyata keçirilən qabaqlayıcı tədbirlərin, dünya ölkələrinə verilən bəşəri dəyərlərin, insanların sağlamlığına və təhlükəsizliyinə göstərilən diqqət və qayğının nəticəsidir: "Bu gün bütün sahələrdə bu diqqət və qayğı özünü göstərir. Əminik ki, Azərbaycan prezidenti İlham Əliyevin fəaliyyətini sayəsində dövlətimiz hələ çox sahələrə öz möhürünü vuracaq və "Azərbaycan modeli" ifadəsi daha tez-tez səslənəcəkdir".

***Aysel Məmmədova***



# YAP Kəlbəcər rayon təşkilatının üzvləri şəhid ailələrini ziyarət ediblər



Yeni Azərbaycan Partiyası Kəlbəcər rayon təşkilatının üzvləri Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin ailələrini ziyarət ediblər.Təşkilatın üzvləri Kəlbəcər rayon Sarıdaş kəndindən olan, hal-hazırda Samux rayonu Seyidlər kəndində müvəqqəti məskunlaşmış şəhidimiz Daşqın Şəfiyev Hidayət oğlunun ailəsini ziyarət ediblər.

YAP Kəlbəcər rayon təşkilatının Aparat rəhbəri Qənaət Əsgərov ziyarət zamanı xalqımızın belə qəhrəman oğullarımızla fəxr etdiklərini, torpaqlarımızın qorunması uğrunda canından keçən Daşqının hünərinin hər bir gəncə örnək olması və hər bir Azərbaycan vətəndaşının öz qəhrəmanlarını tanımasının vacibliyini qeyd edib. Q.Əsgərov onu da vurğulayıb ki, şəhid və qazilərimizin problemlərinin həlli daim dövlətin diqqət mərkəzində olub: "Həmişə ölkəmizdə hər bir şəhid ailəsi, hər bir qazi Azərbaycan Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, Azərbaycan dövlətinin daim diqqətindədirlər".

Təşkilat üzvləri, həmçinin ailənin problemləri ilə maraqlanıb və bəzi problemlərin həlli üçün köməklik göstəriblər. Şəhidin ailəsi böyük fəxr hissi ilə şəhidlərimizin qanını yerdə qoymadıqlarına, xalqımıza qələbə sevinci yaşatdıqlarına görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və müzəffər Azərbaycan ordusuna minnətdarlıq ediblər. Eyni zamanda, ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan məmnunluq ifadə olunub.

***R.HÜSEYNOVA***

# Erməni psixoloq məğlubiyyətin səbəbini "kəşf" etdi

"Ermənistanın Baş nazirinin həyat yoldaşı Anna Akopyanın Stepanakertdə olması kifayət edirdi ki, azərbaycanlılar şəhərin mərkəzini bombalamasınlar". SİA-nın erməni qaynaqlarına istinadən verdiyi məlumata görə, bunu psixoloq Mirdat Madatyan jurnalistlərlə görüşündə deyib. Onun sözlərinə görə, səbəb onun azərbaycanlılarla aktiv əlaqədə olmasıdır, buna görə şəhərin mərkəzinə bir dənə də mərmi düşməyib: "İnsanlar "Paşinyan ailəsi"nin müharibə, minlərlə qurban olmadığı kimi yaşadığını və hər şeyi şouya çevirdiyini gördü. Belə bir insan özünü günahkar hiss edə bilməz, çünki hakimiyyətə niyə gəldiyini əvvəlcədən bilirdi. Günahkarlıq hissi ilə 9 noyabrda özünü güllələməli idi, ancaq erməni xalqına yaşatdıqlarının bəhrəsini görür. Onları narahat edən tək şey, erməni xalqı tərəfindən linç olunmaq qorxusudur və təhlükəsizliklərinin təminatlarını düşünürlər".

Madatyan qeyd edib ki, Paşinyan əvvəllər cəmiyyətin diqqətini problemin üzərində cəmləşdirirdisə, indi Nikol qəsdən insanların diqqətini bir neçə sahəyə yönəldir: mühacirət, sərhədlər, itkin düşənlər, məhbuslar, etirazçılar. Diqqəti Qarabağ problemindən yayındırmaq üçün cəmiyyəti yenidən parçalayır. Onun sözlərinə görə, xalqın apatiyası var və siyasətçilərə etibarını bərpa etmək onsuz da çətin olacaq, amma onlara bu ümidi vermək, güclü bir dövlət quracaq güclü bir liderə ehtiyac olduğunu aydınlaşdırmaq vacibdir.

# Avropa Birliyi: COVİD-19 sosial-iqtisadi mühitə ağır zərbələr endirir

## Pandemiya AB-də yoxsulluğa və tənhalığa səbəb olmaqdadır

***Dünyanı bürüyən COVİD-19 pandemiyasının bəşəriyyətə vurduğu ağır zərbələri başa çatmamış onun digər fəsadları da insanların bundan sonrakı həyatlarının əvvəlki kimi olmayacağı siqnallarını verməkdədir.***

Lakin maraqlıdır ki, bir zamanlar iqtisadi və sosial cəhətdən inkişaf etmiş və mütərəqqi ölkələr hesab edilən dövlətlər indi çoxsaylı problemlər məngənəsində çabalayır, üstəlik, çıxış yolları tapmaqda da çətinlik çəkirlər. Halbuki, COVİD-19-un daha çox inkişaf etməkdə olan ölkələrə və dövlətlərə daha ağır zərbələr vuracağı proqnozlaşdırılırdı. Sən demə, heç də belə deyilmiş...


ANDREA FASANI (EPA-EFE)

### BMT-nin yoxsulluq üzrə məruzəçisi böhranın ikinci dalğasının yaxınlaşması barədə xəbərdarlıq edib və AB-ni sosial xərcləri azaltmamağa çağırıb

Ağır dövr keçirən ölkələrin əksəriyyətinin əsasən Avropa Birliyində (AB) təmsil olunmaları isə həm də belə bir nəticəyə gəlməyə zəmin yaradır ki, hətta birlik, ittifaq şəklində bir-birlərini iqtisadi və s. cəhətlərdən dəstəkləyənlər pandemiyanın yaratdığı situasiyadan sığortalanmayıblar. SİA xəbər verir ki, bu barədə reportajlar hazırlayan “Euronews”in məlumatına görə, COVİD-19 pandemiyası və sosial-iqtisadi tənəzzül çoxsaylı avropalıları yoxsulluq və tənhalığa məhkum etməkdədir. Buna qarşı hazırlanan proqram və layihələr isə gözlənilən nəticələri verməməklə yanaşı, həm də kütləvi narazılıqlarla müşahidə edilir.

Bu arada o da bəlli olub ki, problemlər başa çatmamış BMT-nin yoxsulluq üzrə məruzəçisi böhranın ikinci dalğasının yaxınlaşması barədə xəbərdarlıq edib və AB-ni sosial xərcləri azaltmamağa çağırıb. Belə ki, pandemiya AB-də yoxsulluq və tənhalıq boşluqlarını daha da dərinləşdirir.

### Belçikalı Raymond Jacquet: “Avtomobilimə yanacaq doldurmağa pulum olmadığı üçün sürmürəm, hesabımda 1 sent var”

Reportajda belçikalı Raymond Jacquetin timsalında Avropada tənhalıqdan və yoxsulluqdan əziyyət çəkənlərin mənzərəsi göstərilir, hətta ən kiçik detallara toxunulur və bildirlir ki, Raymond bu gün nəinki özünün sosial tələblərini qarşılaya bilmir, hətta yeni kitab da ala bilmir.

“Avtomobilimi yanacaq doldurmağa pulum olmadığı üçün sürmürəm, hesabımda 1 sent var”, deyən Raymond hətta çörək almaqda çətinlik çəkdiyini bildirib: “Ötən gün pitta axtarırdım. Bu çörək mənə 6,5 avroya başa gəldi. Büdcəm üçün bu, çox böyük bir yükdür. Bunu yalnız vaxtaşırı ödəyə bilərəm. Ən sevdiyim friski hazırlamaq üçün yumurta, pomidor və kartof aldım. Mənim pulum yox idi”. Onu da qeyd edək ki, Avropa Birliyi yoxsulluğun azaldılması hədəfinə çatmayıb.

### AB iqtisadiyyatı sağalmaz xəstəliyə düçar olub - faizlər və rəqəmlərlə

“Euronews” onu da bildirir ki, Avropa iqtisadiyyatının cari ilin ilk rübündə daha kəskin bir enişə getməsi üçün şərtlər var. Avropa Birliyinin statistik idarəsinin məlumatına görə, Avropa bölgəsində illik ÜDM 6.8%, AB ölkələrində isə 6.4%azalıb. Mütəxəssislərin fikrincə, Avropa iqtisadiyyatının bərpası təxminən iki il çəkə bilər. Ötən ilin dördüncü rübündə ən nəzərə çarpan azalma Avstriyada (-4,3%) və İtaliyada (-2%) qeydə alınıb. Ekspertlər 2021-ci ilin birinci rübündə ÜDM-in dinamikasının ilk növbədə COVİD-19 əleyhinə məhdudiyyətlərin şiddətindən və vaksinasiya işlərinin uğurundan asılı olacağını vurğulayırlar.

Lakin bu tədbirlərin də sadəcə ehtimal olunduğu bildirilir və baş verənlər AB-nin iqtisadi cəhətdən sağalmaz xəstəliyə düçar olduğunu açıq-aydın göstərir.

***Rövşən RƏSULOV***

# Seyran Ohanyandan Paşinyana: “Bu, sadəcə səhv yox, əxlaqsızlıqdır”



“Hər ay özünüzü mükafat üçün təqdim etmək səhv yox, əxlaqsızlıqdır”. SİA xəbər verir ki, bunu Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan Gümrü ziyalılarının nümayəndələri ilə görüşü zamanı bəyan edib.

O, qeyd edib ki, 2018-ci ildə hakimiyyətə gələn qüvvələr vətəndaşlara yalançı ümid, ilham verdi. Lakin sonrakı hadisələr bütün hərəkətlərinin kreslolarında oturmağa yönəldiyini göstərdi. “İdarəetmə sistemində çalışanlar bilirlər ki, uğur qazanmaq üçün gecə-gündüz çox çalışmaq lazımdır. Həm də “köhnə” ilə “yeni”ni müqayisə edərək, bu hakimiyyət ağılsız qərarlar verdilər və köhnə dəyərləri tapdalamaqda çox “müvəffəq oldular”, deyə keçmiş nazir tənqidi fikirlərini gizlətməyib.

Mükafatlardan danışan keçmiş nazir onları ordenlərlə müqayisə edib: “Hər ay özünüzü mükafata təqdim etmək sadəcə səhv yox, əxlaqsızlıqdır. Mükafatları müəllimlər, həkimlər, hərbi qulluqçular, çətin şəraitdə işləyən insanlar almalı olduğunu düşünürəm. Kiçik bir müvəffəqiyyət əldə etməyən hökumət sistemində heç kimin mükafat almağa haqqı yoxdur”.

***İnam Hacıyev***

# Virusdan qorunmada tibbi maskanın rolu



**İki maskanın üst-üstə taxılması Covid-19-a qarşı daha çox qoruma təmin edə bilərmi? Mütəxəssislərin fikrincə, iki maska hər vəziyyətdə daha çox qoruma təmin etmir, lakin bəzi istisnalar var. SİA-nın araşdırmasına görə, ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alma Mərkəzi iki və ya daha çox qatdan hazırlanmış bez maskasından istifadə etməyi tövsiyə edir.**

Bununla birlikdə maskanın qoruyucu olması üçün burun ətrafında və üz tərəfində boşluqlar olmadan yaxşı oturması lazımdır. Boston Universiteti yoluxucu xəstəliklər mütəxəssisi həkim David Hamerə görə, üzünüzə yaxşı uyğun gələn maska əksər hallarda yeni növ koronavirusa qarşı kifayət qədər qoruma təmin edir. Bununla birlikdə, hava yolu kimi sıx mühitlərdə və yüksək infeksiya riski olan ərazilərdə daha çox qoruma tələb oluna bilər. Kaliforniya Universiteti yoluxucu xəstəliklər mütəxəssisi həkim Monica Qandi bir-birinin üstünə qoyulmuş 2 qat istifadə olunan tibbi maskaların (cərrahi maskalar) N95 maskası qədər qoruyucu ola biləcəyini söyləyib.

Uzun müddət izdihamlı və qapalı məkanlarda qalanlara əlavə qoruma məsləhət bilən həkim Qandi ikiqat maskaların istifadəsinin yoluxucu mutasiya viruslarına qarşı daha çox qoruma təmin etdiyini bildirib. Həkim Qandi və Virgin Tech İnstitutundan həkim Linsey Marrın maskaların qoruma səviyyələri ilə bağlı apardıqları birgə araşdırmanın nəticələrinə görə, maksimum qorunma tələb edən riskli mühitlərdə filtr materialı olan cüt qatlı maskalar tövsiyə olunur. Həkim Qandi sıx şəkildə toxunmuş və ən azı iki təbəqədən ibarət gündəlik parça maskalarının virusa qarşı təsirli bir qoruma təmin edə biləcəyini söyləyir.

### Harvard Universiteti: Cərrahi maska üzərinə taxılmış parça maska 91 faiz təsirli olur

Harvard Universitetində aparılan təcrübəyə görə, cərrahi maska ətrafdakı insanları aerosol hissəciklərdən 60-70 faiz qoruyarkən, havadakı aerosol hissəciklərinin yüzdə 50 fazini istifadəçiyə ötürür. Universitet araşdırması nəticəsində məlum olub ki, cərrahi maska üzərindən parça maskası taxmaq altdakı maskanın üzə daha daha yaxşı oturmasını təmin edir və hissəciklərin ətrafa yayılmasını 91 faiz azaldır.

***Aysel Məmmədova***

# Əsl erməni riyakarlığı

*İlanın ağına da, qarasına da,*
*lap elə bozuna da lənət...*

**“Erməni xalqı heç vaxt qonşuları ilə normal münasibətlərin əleyhinə olmayıb. İki qonşu - Türkiyə və Azərbaycanın daima Ermənistan dövləti üçün dağıdıcı bir gündəm yaratmağa çalışdıqları isə başqa bir məsələdir”. Bilirsiniz, bu fikirləri kim deyir, Ermənistanın birinci ombudsmanı Larisa Alaverdyan. İnanın, sizi bilmirəm, amma mənim bu qadının “səmimiyyəti”nə zərrə qədər də şübhəm yox idi. Qadındakı “səmimiyyət” məni elə kövrəltmişdi ki... amma qadının sonrakı sözləri məni fikrimdən daşındırdı. SİA erməni mətbuatında yer alan erməni sərsəmləməsinə etinasız ötüşə bilmir...**




Maraqlıdır, görən, erməni qadın dediklərinin fərqindədimi? Yəni doğrudanmı o dediklərinə inanır? Əslində, qadının dediklərini erməni həyasızlığı adlandırmaq düzgün olmaz. Çünki “həyasızlıq” sözü ermənilərin dünyada törətdiyi əməllərlə müqayisədə dar bir çərçivəyə sığa bilən bir məfhumdur. “Ermənilər gürcülərə mənsub məbəd və monastırlardan gürcüləri qovur və onları məhv edir, daşlarda gürcü yazılarını silirlər, qədim tikililərdən daşları çıxarıb, gürcü yazılarını erməni yazıları ilə əvəz edirlər”.

Bu fikirlər gürcü yazıçı və təfəkkürü İlya Çavçavadzeyə məxsusdur. Görəsən, erməni “haxçi” buna nə deyir? Əslində, ermənilərin insanlığa belə sığmayan əməlləri ilə bağlı başqa misallar da çəkmək olar. Amma məncə, bu elə yetərincədir.

Maraqlıdır ki, cırtdan ölkə olan Ermənistan bütün qonşu ölkələrin torpaqlarına iddialıdır. Mən şübhə etmirəm ki, bir gün ermənilər onlara nəvaziş göstərib qəyyumluq edən Rusiya, Fransa, lap elə ABŞ-a qarşı da “özlərinin müqəddəratını təyin etmək” şüarları altında ərazi iddiaları ilə çıxış edəcəklər. Yeri ğəlmiışkən qeyd etmək yerinə düşər ki, son illər ermənilər artıq bu istiqamətdə ilk olaraq Şimali Qafqazda fəallaşmağa başlayıblar.

Larisa Alaverdyana sual vermək istəyirəm: kim zəmanət verir ki, həmin ermənilər nə vaxtsa “miatsum” deyə-deyə küçələrə çıxıb bu ərazilərin “əbədi erməni torpağı” olduğunu iddia etməyəcəklər. Əlbəttə, bu elə də şübhə doğurmur. Bunun üçün onlar tülki kimi, hələ ki, pusquda durublar. Onlara sərf edən əlverişli tarixi məqamın yetişəcəyi anı gözləyirlər. Amma, Larisa Alaverdyana xatırladaq ki, dünya da daha əvvəlki dünya deyi. Məsələ bundadır ki, artıq dünya ölkələrinin əksəriyyəti erməni həyasızlığı barədə məlumatlıdırlar. Məhz bu mənada Şimali Qafqazda yaşayan xalqlar, məsələn elə kazaklar artıq bu məsələdən duyuq düşüblər.

“...Azərbaycanın Zəngəzur üçün iştahı heç kimə sirr deyil. Yeri gəlmişkən, Azərbaycanın Türkiyə daxil olmaqla bütün qonşularına ərazi iddiaları var”. Sizə qəribə gələ bilər, amma inanın ki, bu sözləri də insan hüquqları üzrə müvəkkil olan bir qadın(?) deyir. Amma unutmayaq ku, bu, erməni qadınıdır. Məhz bu mənada. Məncə, daha davam etməyə dəyməz. Çünki məsələ bundadır ki, “onların hiyləgərliyi olduqca murdar, riyakarlıqları olduqca dözülməz, əclaflıqları isə təəssüf doğurur”. Xatırladım ki, son cümlə mənə aid deyil, fransız səyyahı de-Şölye deyib.

***Ağasəf Babayev***

# Əli Kərimlinin həqiqətdən uzaq böhtan, çirkab bataqlığı

## AXCP-nin və antimilli şuranın mənəviyyatsız təmsilçiləri bu bataqlığın buqələmunlarıdır

**"Qozbeli qəbir düzəldər" atalar məsəli deyingən, ona-buna böhtan yağdırmaqdan, yalan danışmaqdan yorulmayan, hər işdə qaranlıq məqamlar axtaran radikalların boyuna biçilib. Ötən əsrin sonunda tank üstündə iqtidara gəldiklərini etiraf edən, "platformalarında" nəzərdə tutduqları vəzifələrini unudaraq şəxsi maraqlarını dövlət mənafeyindən üstün tutan AXC-Müsavat hakimiyyətinin sözdə demokratları əsl demokratiyanın tələblərini yaddan çıxararaq "mənəmlik" mərəzinə mübtəla oldular.**



Boşaltdıqları dövlət büdcəsinə dəfələrlə əl gəzdirərək ölkəni müflis edən iqtidarsızlar öz problemlərinin həllini ön plana çəkdilər. Onların fəaliyyətindən narazı olan əhalinin etirazlarına baxmayaraq 10 il hakimiyyətdə qalacaqlarını bəyan edən AXC hakimiyyətinin "bərkgedəni" təmsilçisi Əli Kərimli kimi başqaları da insanların üzləşdiyi çətinliklərə, dağılmaqda olan Azərbaycanı gözləyən təhlükələrə məhəl qoymayaraq sərmayə toplamaq yarışına girişdilər. Ölkəni çətinlikdən qurtarmaq, həyati təhlükələri aradan qaldırmaq iqtidarında, səriştəsində, təcrübəsində olmadıqlarını əməlləri ilə subut etdilər. Tarixə qara səhifə kimi yazılan "xidmətləri" ölkədə vətəndaş müharibəsi üçün yaratdıqları şərait oldu. Hərəsi bir dövlətin agenti olduğu üçün o vaxtkı Dövlət Təhlükəsizliyi Komitəsinin arxivinin açılmasına imkan vermədilər. Açıq sözlü, azad fikirli ziyalılar həqiqəti söylədikləri üçün aldıqları cəzaların daxili işlər nazirinin dövlət nişanlı avtomobilinin baqajına salınmaqla çəkdilər. Dözülməz vəziyyəti tənqid edən jurnalistə kağız yedizdirildi. Azərbaycan Televiziyasının canlı verilişinə müdaxilə edən daxili işlər naziri təpiyi ilə masanı üzü üstə çevirərək qonaqları təhqir etdi. Şuşa işğal olunsa başına güllə çaxacağını bildirən müdafiə naziri yolda rastlaşdığı təcrübəsiz gəncləri zorla maşınlara dolduraraq bir başa cəbhə bölgəsinə göndərdi. Cəmiyyətin qəzəblə qarşıladığı belə aqressiv davranışları ilə insanların nifrətini qazanan AXC- Müsavat cütlüyünün antidemokratik hərəkətlərinə dözməyən xalq onları tarixin səhifəsindən əbədilik sildi. İqtidarsızların iqtidarına son qoyuldu.

Bu qədər çirkaba bulaşdıqlarını özləri də hiss etdikləri halda demokratiya yolu ilə dünyaya inteqrasiya edən, iqtisadi uğurları, diplomatik gedişləri, hərbi üstünlükləri ilə tanınan Azərbaycan haqqında mənfi rəy formalaşdıran, xəyanət yolunu tutan radikallar görünür keçmişlərini unudublar. İllərdən bəri itirdiyi kreslosunun həsrətini çəkən AXCP sədri Əli Kərimli və onun formalaşdırdığı "beşinci kolon"a, xəyanətkar dəstəyə xatırladaq ki, dağılmaq həddinə çatdırdıqları, viran qoyduqları Azərbaycanın işğal olunmuş torpaqları Prezident, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə azad edildi. "1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü. O vaxt ermənilər öz dırnaqarası əməliyyatına bir ad vermişdilər - dağlarda toy. Halbuki heç əməliyyat da keçirilməmişdi. Şuşa şəhəri boşaldılmışdı. O vaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, qorxaqcasına Şuşadan qaçmışdı. Ondan sonra isə ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular - dağlarda toy. İndi biz onlara elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır" söyləyən Prezident İlham Əliyevin sözləri qələbəmizə qara yaxınları qəflət yuxusundan ayıltmalıdır.

30 ilə yaxın müddətdə ölkə iqtisadiyyatını yalnız inkişaf yolu ilə irəliyə aparan, respublikamızı dünyada islahatlar ölkəsi kimi tanıdan, qlobal enerji, nəqliyyat layihələri ilə qitələri birləşdirən, sivilizasiyalararası dialoq mərkəzinə çevirən, təməlini qoyduğu əməkdaşlıq formatları ilə bölgədə sülhün təminatına xidmət edən, təşəbbüsləri dəstəklənən Prezident İlham Əliyevin liderlik qətiyyəti 44 gün davam edən İkinci Qarabağ savaşında düşməni kapitulyasiya aktını imzalamağa məcbur etməsidir. Ali Baş Komandanımızın dünyada baş verən müharibələr tarixində az-az təsadüf olunan belə qısamüddətli savaşda düşmənə qalib gəlmək səriştəsi, məharəti nümunə göstərildi. " Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaqdır. Artıq məndə məlumat var ki, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edirlər" söyləyən Ali Baş Komandan İlham Əliyevin başçılıq etdiyi ordumuzun döyüş yolunu öyrənən, özləri üçün nümunə, təcrübə məktəbi adlandıran xarici hərbi ekspertlərin əsgər və zabitlərimizin rəşadəti haqqındakı yüksək rəylər 17 ildə ordu quruculuğu istiqamətində çəkilən zəhmətə beynəlxalq səviyyədə verilən qiymətdir. Bu dəyəri görməmək, duymamaq karlıq və korluqdur. Təcrübəli zabitlərimizin, torpaq uğrunda qurban getməyə hazır olan əsgərlərimizin, orduya könüllü yazılan vətənpərvər gənclərimizin rəşadəti sayəsində düşmənə vurulan ağır zərbəni belə gözdən salmağa çalışan "islahatçı" sədr Əli Kərimlinin, şər-böhtan yuvası antimilli şura təmsilçilərinin xarici ölkələrdə formalaşdırdıqları xəyanətkarların tarixi qələbəmizə qara yaxması, ordumuz haqqında əsası olmayan iftiralar söyləməsi Vətənə xəyanət, şəhidlərimizin ruhuna hörmətsizlik, torpağa, doğma yurda dönüklükdür. Hələ də ölkəmiz əleyhinə təxribatlarını davam etdirən, başqasının artığı ilə yaşayan, mənəviyyatını qrantlara satan Əli Kərimli və ətrafındakılar üçün yalan, iftira gəlir mənbəyidir. Beləlləri bilməlidirlər ki, həqiqət yaxşının axtarıldığı yerdə və onu dəyərləndirənlərin nəzərində qiymətlidir. Çirkaba batmış əlikərimlilərin məkanı çamurluq, bataqlıq olduğu üçün orada düzlük və doğruluqdan danışmaq günəşə ləkə vurmaq kimidir.

***Xuraman İsmayılqızı***

# AXCP-"Milli Şura" - satqınlar yuvası

## Yaxud milli mənliyi, ruhu qısırlaşmış Vətən satqınları



**Sirr deyil ki, bu gün ölkəmizin günü-gündən artan inkişafını görməyən, şəxsi maraqlarına görə milli dəyərimizi gözdən salan sapı özümüzdən olan satılıb-satılan baltalar, özü də sapı çürük baltalar "siyasi mühacir" adı altında çörəyini yeyib, suyunu içdikləri vətənlərinə qarşı antitəbliğat kampaniyası aparmaqla erməni lobbisi tərəfindən lazımi maliyyələ alırlar. Erməni lobbisinin maliyyələşdirdiyi mili mənliyiy, ruhu qısırlaşmış Vətən satqınları satqınlar yuvası - AXCP-"Milli Şura"da olan Əli Kərimli, Cəmil həsənli, Gültəkin Hacıbəyli, Sevinc osmanqızı, Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir, Vidadi İsgəndərli, Arif Məmmədov və digər bu kimi parazitlər həyasıcasına çirkin əməllərindən əl çəkmirlər.**

Deyir xəyanətkarın ağı-qarası olmur. Həm də o da deyilir ki, haqq nazilər, ammma üzülməz. Gec-tez haqqı tapdalayanlar, ermənilərə qahmar çıxanlar ediyi cinayət əmməllərinə görə tezliklə xalq, qanun qarşısında cəzasını alacaq və o zaman siçan deşiyi axtaracaqsınız. Bir də bu gün sosial şəbəkə virusları anlamırlar ki, "sirkə nə qədər tünd olsa öz qabını çatladacaq". Çünki Avropa ölkələrinə sığınan və son vaxtlaradək trivial videobloqerliklə, bir də məzmunsuz və proqramsız "müxalifətçi"liklə məşğul olan Əli Kərimli, Cəmil həsənli, Gültəkin Hacıbəyli, Sevinc osmanqızı, Leyla Yunus, Emin Milli, Orduxan Teymurxan, Tural Sadiqli, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir, Vidadi İsgəndərli, Arif Məmmədov və digər bu kimi əxlaqsız sapı çürük olan vətən satqınları elə özləri deyib, özləri də eşidəcəklər.

### Vətəni, milləti satan Əli Kərimlinin ləçərləri...

Belə əxlaqsız və mənəviyyatını bütünlüklə qrantlara satan belə nakəslərdən başqa nəyi gözləmək olar?! Avropaya "siyasi mühacir" statusunda getmək istəyən tör-töküntüləri xalqla səhv salan S.Osmanqızı, Ə.Kərimli kimi nəsli, nəcabətini erməniləşdirən nacinslərdən nə gözləmək olar?. Əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız bu siyasi satqınlardan çıxar. Vətəni, milləti satan Əli Kərimlinin Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli, Xədicə İsmayıl və ... kimi formalaşmış ləçərləri çoxdur.

### <u>Qurban Məmmədov:</u> "Əxlaq əsl kişiyə aiddir, daha Əli Kərimli kimi əxlaqsıza yox! Bu, gədənin biridir"

Çox qəribədir. Bu bu çamda olanlar ancaq bir-birilərinin sirin elə açırlar ki... Elə "siyasi mühacir" həyatı yaşayan Qurban Məmmədovun dediyi kimi: "əxlaq əsl kişiyə aiddir, dahə Əli Kərimli kimi əxlaqsıza yox! Bu, gədənin biridir. Özünü başqa əxlaq sahibi kimi aparır. Bütün dünyaya sübut etmişəm ki, 28 ildir Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayıl bu xalqa təlqin edir ki, günahkar xalqdır. Ayıq olun, bunu bilin. Zaman gələcək Əli Kərimli, arxivlər açılacaq. Sən kimsən, Elçibəyə nələr eləmisən, nə təbliğat aparmısan, Kələkidən Bakıya necə gəlmisən, Bunların hamısını ortaya qoyacağıq. Eyni ilə S.Osmanqızı, onun dədəsinin goru çatlayır indi. Bu övlad atasına hər gün lənət oxutdurur. 40 minlik kanal bağlatdıranda oxudu ki, guya adını demədiyi bir tələbə buna yazıb ki, dekan buna AzeriFreedomu layk edin, Osmanqızının kanalını isə dislayk edin. Budur, yalan, tərbiyəsizlik? Hanı sübut? Əli Kərimliyə nə qədər yalanacaqsan?".

Bax, budur satqınların formalaşmış siması. ABŞ-a sığınmış Sevinc Osmanqızı kimi əxlaqsızlar YouTube kanalında bu gün çıxış edərək bildirir ki, "iqtidar şəhidləri qiymətsiz edir" danışan belərini necə də əxlansız adlandırmayasan?.

### "Vətən", "millət" deyən əxlaqsızlar bəlkə bir geriyə baxsınlar...

Amma təəssüf ki, geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları və digər günahları onların gözünə görünə bilər. 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəyin dediyi fikri xatırlatmaq istərdim: "Rüşvət alanda milyonlarla dollar alırsınız. Alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...". Və bu gün sosial şəbəkələrdə dövlətin ünvanına özlərinə layiq olduqlarını deyən Vətənini, torpağını satan-satılan AXCP sədri Əli Kərimli, "Milli Şura" deyilən satqınlar yuvasına sədrlik edən, saçına, "başına" hörmət etməyən Cəmil Həsənli həyasızcasına AXC-Müsavatla bağlı dövlət başçısının dediyi real faktları özlərinə sərf edən formada "təhlil" edərək bu günkü uğurlara kölgə salmağa çalışmaları "həyasızlığın lap 100 faizidir". Məşhur fransız ədibi Viktor Hüqo dediyi kimi: "Vətənini rüsvay etmək - ona xəyanət etmək deməkdir".

Və bu satqın və şərəfsizlər bilməlidir ki, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil, kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq hər kəs törətdiyi əməllərin cəzasının qanun çərçivəsində almalıdı və alacaq da!

***Rəfiqə HÜSEYNOVA***

# Su problemi: əsl səbəbləri və çıxış yolları

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Su itkiləri minimuma endirilməli, su ehtiyatlarından səmərəli istifadə olunmalı, yeraltı və yerüstü su mənbələrinin toplama anbarları yaradılmalıdır**

Tarif Şurasının qərarı ilə suyun qiymətinin 2 dəfə bahalaşdırılması cəmiyyətdə narazılıq yaratdı. Azərsu ASC əhalinin sudan səmərəli istifadə etmədiyini, suyun israf olunduğunu və su təchizatı üçün xərclərin artdığını əsas gətirərək qiymətin bahalaşmasının vacib olduğunu bəyan etdi. Doğrudur, ölkəmizdə su israfçılığı var. Lakin həm də 30-40 faiz su itkisi də var ki, burada da günah əhalidə deyil. Bundan başqa, burada bəzi başqa məqamlar var ki, onların araşdırılmasına ehtiyac var.

### Suyu kim israf edir- əhali, yoxsa biznes obyekləri?

Azərsu rəsmiləri hər dəfə günahı əhalinin üstünə atmağa çalışsa da, problem təkcə su israfı ilə bağlı deyildir. Daha doğrusu, əhalinin israfı ilə bağlı deyildir. İçməli suyu, əsasən, müəssisələr və yaşıllıq təsərrüfatları daha çox istifadə edir. Əhali lazım olan qədər istifadə edir, çünki heç kim artıq su pulu ödəməyi xoşlamır.

Daha çox həcmdə su biznes obyektlərinə, zavod, fabrik və iaşə müəssisələrinə yönəldilir və beləliklə, böyük su israfına yol verilir. Doğrudur, Azərbaycanda son dövrlərdə su sektoruna çox böyük xərclər çəkilib, yeni su anbarları, su kəmərləri, kanallar yaradılıb. Bundan başqa, su təzhizatının idarə edilməsi üçün böyük xərclər tələb olunur. Hazırda yığılan su pulları ilə bu xərcləri ödəmək çətindir. Lakin Azərsu-nun zərərlə işləməsinin yeganə səbəbi bu deyil. Problem, əsasən, içməli su mənbələrinin effektiv idarə olunmaması, çox böyük (30-40 faiz) su itkisinə yol verilməsi, ekoloji böhranın yaranmasına imkan verilməsi və alternativ mənbələrdən istifadə olunmaması ilə bağlıdır.

### Su ehtiyatlarının azlığı problemi kəskinləşdirə bilər

Ədalət naminə qeyd etməliyik ki, su çatışmazlığında qlobal quraqlığın və ekoloji problemlərin də müəyyən payı vardır. Ötən ilin yayında Kürdə suyun kəskin azalmasının səbəblərindən biri də, Kürə axan kiçik çayların yaratdığımız ekoloji böhran sayəsində quruması və çay suyunun çay yatağına yaxın təsərrüfatlar və müəssisələr tərəfindən amansızcasına istifadəsi ilə bağlıdır. Bu kimi məsələlər aidiyyatı orqanların öz işlərini yaxşı görməməsindən irəli gəlir.

Araşdırmalara görə, bizim yerüstü su ehtiyatımız orta illik 32,3 mlrd. kubmetrdir. Quraqlıq illərdə isə bu göstərici 23 mlrd. kubmetrə qədər azalır. Ölkədə adambaşına orta illik 3700 kubmetr su düşür. Yeraltı içməli su mənbələrində isə 23,764 mln. kubmetr/gün su ehtiyatı var. Azərbaycan ərazisinin hər kv.km-nə və əhalinin hər nəfərinə düşən yerüstü su ehtiyatları göstəricisinə görə Cənubi Qafqaz dövlətləri və Rusiyadan geridə qalır. Cənubi Qafqazın ümumi su ehtiyatının (310 mlrd.kubmetr) 62%-i Gürcüstanın, 28%-i Ermənistanın, yalnız 10%-i Azərbaycanın payına düşür.

Respublikamızda ümumi su ehtiyatı 31, Gürcüstanda 63, Ermənistanda 8 kubkilometrdir. Yerli su ehtiyatları ölkəmizdə 10.3, Gürcüstanda 53.6, Ermənistanda 6.5 kubkilometr təşkil edir ki, bunun bir il ərzində hər bir nəfərə düşən hissəsi Azərbaycanda 1.03, Gürcüstanda 13.7, Ermənistanda isə 2.2 min kubmetrdir. Ölkəmizin hər kv. km-ə 119 min kubmetr yerli su ehtiyatı düşür. Gürcüstanda bu rəqəm 769 min, Ermənistanda isə 218 min kubmetrdir.

Ölkəmizin su ehtiyatının da 70 faizi ölkə xaricindəki mənbələrdən formaslaşır. Su çatışmazlığı həmçinin mövcud su ehtiyatlarından rasional istifadə edilməməsi ilə də izah edilir. Bakının su təsərrüfatı, infrastrukturu 1,5 mln. insan üçün nəzərdə tutulsa da, hazırda paytaxt sakinlərinin sayı azı 2 dəfə artıb.

### Problemin həlli düzgün idarəetmədən keçir

Müşavirələrinin birində dövlət başçısı bu sahədəki problemlərə də toxundu və qeyd etdi ki, su sektoruna kifayət qədər vəsait ayrılıb, lakin bəzi orqanların və məsul şəxslərin məsuliyyətsizliyi nəticəsində effektiv tədbirlər görülməyib.

Su sektoruna ayrılan vəsaitlər digər sahələrin əksəriyyətindən çoxdur. Son dövrdə bu sahəyə milyardlarla pul ayrılıb. Bu pullar hara, nəyə, necə xərclənib, niyə vaxtında qarşısı alınmayıb su böhranının?

Niyə kəndlərdə artezian qazdırmaq istəyən təsərrüfat sahiblərinə bürokratik maneələr yaradılıb və quyu qazılması üçün böyük qiymət qoyulub? Nə üçün dəniz kənarında su şirinləşdirici zavodlar tikilməyib? Niyə yaşayış məntəqələrinin və təsərrüfatların su təminatı üçün alternativ mənbələr və xətlər yaradılmayıb?

Su qıtlığı aqrar sektora- iqtisadiyyata da böyük zərər vurur, məhsuldarlıq azalır, bir çox ərzaq məhsullarını idxal etməyə məcbur oluruq. Yay mövsümü bəzi rayonlarda əkinlər susuzluqdan yanıb gedir.

Qarabağın azad edilməsi nəticəsində su ehtiyatlarımız xeyli artdı. Belə ki, 4 böyük su anbarı (Xudafərin, Qız Qalası, Sərsəng və Suqovuşan), onlarla kiçik çay və göl, minlərlə bulaq təmiz və keyfiyyətli su ehtiyatı deməkdir. Həm içməli su kimi, həm də suvarma suyu kimi. Bunlardan səmərəli istifadə olunsa, ölkəmizdə heç vaxt su problem olmayacaq.

### Su problemini həll etmək üçün nələr edilməlidir?

Beynəlxalq təşkilatların hesabatlarına əsasən, 2025-ci ildən sonra qlobal şirin su çatışmazlığı problemi dünyanın bir sıra ölkələri üçün siyasi və sosial-iqtisadi təzyiq vasitəsinə çevriləcəkdir. Dəqiq hesablamalara görə dünyada 1 milyard insan su qıtlığından əziyyət çəkir. Bəli, problem qlobaldır. Baş verənlər, əsasən, antropogen təsirlər nəticəsində təbiətin məhv edilməsi ilə bağlıdır. Bu, yeni söhbət deyil, 30 ildən çoxdur ki, dünyanın ekoloq alimləri həyəcan təbili çalırlar ki, tezliklə su böhranı olacaq. Bir çox ölkələr, çox uzağa getməyək, elə yaxın qonşularımız bu istiqamətdə çox illər qabaqdan başlayaraq lazımi işlərə start veriblər.

Bəs Azərbaycanda nə etmək olar, vəziyyətdən çıxış yolu nədədir?. Fikrimizcə, aşağıda qeyd olunan effektiv tədbirlər görülsə, problemin kəskinləşməsinin qarşısını almaq olar.

1. Xüsusi şirkətlərə, müəssisələrə, iri təsərrüfatlara, bahalı villalara çox vaxt sayğacsız verilən limitsiz su biabırçılığının qarşısı alınmalıdır. Belə obyektlər ağlagəlməz miqdarda su israf edir və bunun üçün çox az pul ödəyirlər.

2. Xəzər sahilində su şirinləşdirici zavodlar tikilməli, onların dəniz suyunu duzsuzlaşdıraraq emal etdikləri su yaşıllıqların suvarılmasında, dəhşətli su israf edən broyler fakriblərində, digər müəssisələrdə texniki istifadəyə yönəldilməlidir ki, Bakıya gələn təbii şirin su kanalları yüklənməsin.

3. Ölkəmizin yeraltı su hövzələrindən səmərəli istifadə üçün bütün mümkün zonalarda xeyli sayda artezian qurğuları yaradılmalıdır. Bu yolla həm əhali, həm də təsərrüfatlar daimi su əldə edə bilər və bu da aqrar sektorun inkişafına səbəb olar.

4. Ölkədə ekoloji terrorun qarşısı alınmalı, quruyan kiçik çayların, göllərin, bulaqların quruma səbəbləri araşdırılmalı və qarşısı alınmalıdır.

### Prezidentin sərəncamı vəziyyəti dəyişdirəcək

Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda müxtəlif işlərin görülməsi nəzərdə tutulub. Planda alternativ mənbələrdən, o cümlədən, qrunt, təmizlənmiş tullantı, kollektor-drenaj sularından, balıqçılıq təsərrüfatlarında istifadə olunan sulardan və Xəzər dənizinin suyundan istifadə, subartezian və artezian quyularının qazılması, həmçinin 10 yeni su anbarının tikilməsi nəzərdə tutulur.

Əlbəttə, bu işlər həyata keçirilsə, ölkəmizdə su problemi olmayacaq. Əhali də sudan qənaətli istifadə etməlidir. Suvarmada yeni qənaətcil texniki qurğular tətbiq olunmalıdır. Bir çox ölkələrdə, hətta yağış suyunu yığıb istifadə edirlər. Bu problemin həlli üçün innovativ texnologiyalar tətbiq olunmalıdır. Mümkün olan bütün yerüstü və yeraltı su mənbələrindən istifadə edilməlidir. Əlbəttə, təbii balansı pozmamaq şərtilə.

Ən asası, su ehtiyatlarından səmərəli istifadə olunmalı, itkilərin qarşısı alınmalı, kiçik çayların, göllərin qurumasına səbəb olan amillər aradan qaldırılmalıdır. Dəniz sahilində su şirinləşdirici zavodlar tikilməlidir və bu sudan sənaye məqsədləri və yaşıllıqların suvarılması üçün istifadə olunmalıdır. Mümkün olan bütün çayların üzərində kiçik su anbarları yaradılmalı, suvarma məqsədilə çoxlu kanallar çəkilməlidir. Bu halda həm aqrar sektorda inkişaf sürətlənər, həm də əhalinin su təchizatında problemlər aradan qalxar.

***Elçin Bayramlı***




ARAŞDIRMA

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

5 fevral

QARABAĞ AZƏRBAYCANDIR!


## Neymar Premyer Liqada oynamaq ehtimalından danışdı



PSJ-nin futbolçusu Neymar karyerasını İngiltərə Premyer Liqasında davam etdirməsi ehtimalından danışıb. Qol.az "Daily Mail"ə istinadən xəbər verir ki, 28 yaşlı hücumçu belə bir versiyanın onu maraqlandırmadığını deyib: "İngiltərə çempionatında çıxış etməklə maraqlanıram? Premyer Liqa matçlarına çox az baxıram. Amma orada fiziki təmasların çox olduğunu eşitmişəm. Lakin Fransa çempionatında da güc futbolu kifayətdir. Məni motivasiya edən məğlubiyyətlər deyil, bir vaxtlar qazandığım qələbələrdir. Çempionlar Liqasında qalib gəlməyin nə olduğunu bilirəm və buna PSJ ilə də nail olmaq istəyirəm".

Qeyd edək ki, Neymar bu mövsüm PSJ-nin heyətində 10 oyuna çıxaraq, 6 qol vurub və 4 qolun ötürməsini verib.

## "Yuventus"dan Ronaldoya yeni təklif

**"Yuventus" hücumçusu Kriştiano Ronaldoya yeni müqavilə təklif etməyə hazırdır. Qol.az xəbər verir ki, bu barədə "Tuttosport" məlumat yayıb.**

Bildirilib ki, Turin klubunun rəhbərliyi portuqaliyalı hücumçunun oyunundan məmnundur. Klub onun 2023-cü ilin yayına qədər hesablanacaq yeni bir müqaviləyə layiq olduğunu düşünür. 35 yaşlı futbolçunun özü də İtaliya klubunda oynamağa davam etmək istəyir.

Qeyd edək ki, Ronaldo 2018-ci ilin yayında "Real"dan 112 milyon avroya Turin təmsilçisinə keçib. O, bu mövsüm A Seriyasında 16 oyun keçirib, 15 qol vurub və 3 məhsuldar ötürmə verib. Forvardın "Yuventus" la hazırkı müqaviləsi 2022-ci ilin yayına qədərdir.



## ABŞ-da ilk dəfə pul əskinası üzərində qaradərili portreti olacaq

ABŞ-da Harriet Tabmenin (kölelikdən qaçan və sosial islahatlar və azadlıq uğrunda mübarizə aparan bir qadın) təsvir olunduğu 20 dollarlıq əskinasın buraxılması təşəbbüsü çoxdan təklif olunmuşdu. 2020-ci ildə 19 nömrəli düzəlişin 100 illiyi münasibətilə dövriyyəyə buraxılmalı idi.

Qeyd edək ki, həmin düzəlişə əsasən ölkədə qadınlara seçkilərdə səs vermək hüququ verilmişdi. Ancaq mövcud banknotda təsvir olunan prezident Endru Ceksona Trampın şəxsi simpatiyası olduğundan 20 dollarlıq əskinasın dəyişdirilməsi məsələsini sonraya qoydu. Lakin Co Baydenin komandası yaxın gələcəkdə belə bir təşəbbüsü həyata keçirməyə çalışacağına söz verib. Xatırladaq ki, Amerika pullarında heç vaxt qaradərililərin portretləri olmayıb.

## Gün ərzində 30-50 qram çərəz qəbul edilməsi orqanizm üçün faydalıdır



**Orqanizmdə asan və rahat həzm edilən çərəzlər rasionda yer alan xeyirli qidalardandır. Faydalı maddələrlə zəngin olmaqla yanaşı, çərəzlər enerji və zülal mənbəyidir. Qoz, fındıq və digər çərəzlər tərkibində olan müxtəlif vitamin və mikroelementlərlə yaddaşı gücləndirir, eyni zamanda əqli fəaliyyətə müsbət təsir göstərir. lakin onların allergik və qıcıqlandırıcı təsirləri nəzərə alınaraq gün ərzində 30-50 qram arasında qəbul olunmalıdır.**

Qida dəyərləri yüksək olduğundan gündəlik vitamin tələbatını bir ovuc çərəzlə də əvəz etmək mümkündür. Bakıdakı 6 nömrəli poliklinikanın terapiya şöbəsinin müdiri Gülsarə Sadıqova AZƏRTAC-a deyib: "Qida bişdikcə tərkibində olan bir sıra vitaminlər, o cümlədən S vitamini 50, A vitamini 70 faiz azalır. Həmin vitaminləri çərəzlər vasitəsilə daha çox miqdarda qəbul edilir".

Həkim-terapevtin dediyinə görə, qoz, fındıq, püstə kimi çərəzlər qanda xolesterolun səviyyəsini tənzimləyir, böyrəyin fəaliyyətinə müsbət təsir göstərir: "Dəriyə faydasına görə bəzi kosmetoloji məhsulların hazırlanmasında da onlardan alınan yağlardan istifadə olunur. Qozun tərkibində olan Omeqa-3 yağ turşuları diabeti, yüksək qan təzyiqini və depressiyanı aradan qaldırmağa kömək edir. Qoz istehlakı ürək xəstəlikləri riskini azaldır, beyinin işini gücləndirir. Ürək-damar sistemi üçün çox əhəmiyyətlidir".

Araşdırmalara görə, bir çox qidalardan fərqli olaraq çərəzlərin tərkibində olan faydalı maddələr bir neçə il qala bilir. Qəbul edilən bir ovuc çərəz günə gümrah və sağlam başlamağa səbəb olur. Lakin mütəxəssislər çərəzlərdən istifadə edərkən diqqətli olmağı tövsiyə edirlər. Onun gündəlik qəbulu zamanı allergik təsirlərini də unutmaq olmaz.

## Evdən 100 min manatlıq qızıl-zinət əşyaları oğurlayan şəxs yaxalanıb



Nərimanov rayonunda oğurluqla məşğul olan şəxs cinayət məsuliyyətinə cəlb edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 27-də rayon ərazisindəki evlərin birindən 70 min ABŞ dolları məbləğində pul və 100 min manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini E.Ağayev rayon polis idarəsinin 16-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla əlaqədar təhqiqat aparılır.

## Sürücülərin 44%-i yanacağa ay ərzində 200 manat xərcləyir



"Media Təhlil Mərkəzi" tərəfindən yanacaqdan istifadə ilə bağlı ictimaiyyətin fikrini öyrənmək məqsədi ilə 06-11 yanvar tarixləri arasında sorğu keçirilib. Sorğuda iştirak edən 725 respondentin 13,2%-ini qadınlar, 86,8%-ini isə kişilər təşkil edib. Bu barədə Mərkəzdən bildirilib. Respondentlərin 65%-i Aİ92 markalı benzindən, 18,5%-i Aİ95 markalı benzindən, 13,4%-i dizel yanacağından, Aİ98 markalı benzindən isə cəmi 2,4%-i istifadə etdiyini bildirib. Maye qaz istifadəçilərinin faiz nisbəti isə 0,4% olub.

Sorğulananların 43,9%-i ay ərzində yanacağa 100-200 manat, 25%-i isə 100 manata qədər pul xərclədiklərini bildiriblər. Aylıq büdcəsindən yanacağa 200-300 manat ayıranların faiz nisbəti 21,1%, 300 manatdan çox pul xərcləyənlərin faiz nisbəti isə 10% olub.

## Keçmiş məhkumdan üç kiloqramdan çox narkotika götürülüb



Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bayıl qəsəbə sakini, əvvəllər məhkum olunmuş C.Talıbzadə saxlanılıb.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, axtarış zamanı ondan 53 qrama yaxın heroin aşkarlanıb. Davam etdirilən tədbirlər nəticəsində onun evinə baxış keçirilib. Evdən 2 kiloqram 363 qram heroin, 1 kiloqram 35 qram metamfetamin, 1 kiloqram 105 qram marixuana və 2 elektron tərəzi götürülüb.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600